www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15 avqust 2025-ci il Cümə № 143 (8753) Qiymət 60 qəpik

**Xəbər**

## Azərbaycanlılar bu ölkədə ev almağa axışır

yazısı səh.10-da

**Gündəm**

### Bakı və İrəvan 10 noyabr razılaşmasından niyə çıxmır?



Moskva 10 noyabr üçtərəfli bəyanatını qabartmağa başlayır

yazısı səh.7-də

### General Bəxtiyar Ersayı kim əvəz edəcək?

yazısı səh.5-də

### Avropa Parlamentindən Bakıya yeni hücum

yazısı səh.4-də

### Qeysəriyyə əməliyyatında artan ölümlər

yazısı səh.3-də

### İsveçrə ermənipərəstləri məyus etdi

yazısı səh.4-də

### Minsk Qrupunun ləğvi üçün danışıqlar başlayır

yazısı səh.7-də

### Azərbaycan neftini gözdən salanların izi tapıldı

yazısı səh.8-də

### Ölkəmizi bu bloka qoşmaq niyyəti

yazısı səh.9-da

### Qarabağdakı yanğınları kimlər törədir?

yazısı səh.10-da

### Məşhur ticarət mərkəzində rəzalət

yazısı səh.14-də

### Özəl məhkəmə icraçıları - işləri nə olacaq?

yazısı səh.14-də

### "Formula 1"-də məktəblər bağlanacaq?

yazısı səh.2-də

### Bakıda qadınlar da avtobus sürəcək

yazısı səh.11-də

# 102-Cİ BAZADAKI HƏRƏKƏTLİLİYİN SİRRİ AÇILDI - BAKIYA QARŞI...

Rusiya Cənubi Qafqazda "bütün problemləri həll etmək" üçün kifayət qədər qoşunu olmaqla Bakı və İrəvanı təhdid edir - regionda yeni təxribatlara hazırlıq anonsu

yazısı səh.5-də



# Dünyanın gözü Alyaskada

Avqustun 15-də ABŞ və Rusiya prezidentləri arasında təkbətək, yalnız tərcüməçilərin iştirakı ilə danışıqlar olacaq; Tramp: "Putinlə növbəti görüş olmaya bilər"

yazısı səh.6-da



*Şahlar Əsgərov:*

### "Milli təhsil "vaqon"u artıq relsdən çıxıb..."

yazısı səh.13-də



### Vilayəti indi də Ermənistanı təhdid etdi

yazısı səh.6-da



### Deputat məcburi köçkün statusunun ləğvinə qarşı

yazısı səh.15-də



# Antonio Koşta Prezident İlham Əliyevə zəng etdi

**Avqustun 14-də Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta Prezident İlham Əliyevə zəng edib.**

Antonio Koşta Vaşinqtonda Azərbaycanla Ermənistan arasında ABŞ Prezidentinin şahidliyi ilə bəyannamənin imzalanması, sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında sazişin paraflanması və regional nəqliyyat dəhlizi ilə əlaqədar əldə olunmuş nailiyyətlər münasibətilə dövlətimizin başçısını təbrik edib. Təbriklərə görə minnətdarlığını ifadə edən Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin təşəbbüskarının və sülh müqaviləsinin mətninin müəllifinin məhz ölkəmiz olduğunu xatırladıb. Vaşinqtonda əldə olunmuş nailiyyətlərin əhəmiyyətini vurğulayan dövlətimizin başçısı bu məsələdə ABŞ Prezidenti Donald Trampın xüsusi rolunu qeyd edib. Prezident İlham Əliyev Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan regionu arasında maneəsiz nəqliyyat bağlantısı üzrə razılaşmanın önəminə toxunub.

Dövlət başçısı və Antonio Koşta Azərbaycan-Avropa İttifaqı əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparıb, qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.



# Azərbaycanda da kriptovalyutalardan istifadə ediləcək?

**"Mərkəzi Bank xüsusi tənzimləmə rejiminin ilk mərhələsi üzrə sınaq dövrlərinin başa çatdığını bəyan edib. Sınaq müddətində 4 innovativ məhsulun qiymətləndirilməsi həyata keçirilib. 2 istiqamət üzrə qiymətləndirmə nəticələri uğurlu hesab olunub, digərləri üzrə məqsədəuyğun hesab edilməyib".**

Bu barədə **iqtisadçı-deputat Vüqar Bayramov** sosial şəbəkə hesabında paylaşım edib.

Deputat dəstəklənən layihələr məhz kriptovalyuta əməliyyatları ilə bağlı olduğunu deyib.

"Belə ki, kriptovalyuta əməliyyatlarını daha təhlükəsiz və şəffaf şəkildə icra etmək üçün "m10" tətbiqinin "Binance" platformasına inteqrasiyası nəzərdə tutulur. İstifadəçilər bu inteqrasiya vasitəsilə "Binance" cüzdanlarına mədaxil və məxaric edə bilərlər. Digər layihə "kriptobroker platforması" virtual aktivlərinin asan və təhlükəsiz şəkildə alışı, satışı və saxlanılması imkanlarını yaradır. Xüsusi tənzimləmə rejimi çərçivəsində sınaqların keçirilməsində məqsəd, həmçinin, bu istiqamətdə normativ-hüquqi bazanı formalaşdırmaq və təkmilləşdirməkdir.

Mərkəzi Bank hələ 2019-cu ildən blokçeyn əsaslı Rəqəmsal İdentifikasiya Sisteminin yaradılması layihəsinin icrasına başlayıb. Blokçeyn texnologiyasının tam tətbiqi imkanlarının araşdırılması virtual pul bazarının inkişafı baxımından vacibdir.

Mərkəzi Bankın test layihələri daha yaxın gələcəkdə Azərbaycanda kriptovalyutaların buraxılması və istifadəsinə imkan yarada bilər. Qlobal maliyyə əməliyyatları intensiv şəkildə virtuallaşdığı üçün Azərbaycanda da kriptovalyutalardan istifadə və sistem inteqrasiyası əsas çağırışlardan biridir", - deyə deputat qeyd edib.

# V qrup üzrə 4704 plan yeri nəzərdə tutulur

**2025/2026-cı tədris ili üçün respublika ali təhsil müəssisələrində V ixtisas qrupunda Azərbaycan və rus bölmələri, hər iki bölmənin birgə müsabiqəsi üzrə tələbə qəbulu planı və dövlət sifarişi üzrə yerlərin sayı təqdim edilib.**

Dövlət İmtahan Mərkəzindən bildirilib ki, 2025/2026-cı tədris ili üçün ali təhsil müəssisələrinin V ixtisas qrupunda Azərbaycan bölməsi üzrə 1829 və rus bölməsi üzrə 217, hər iki bölmənin birgə müsabiqəsi üzrə 2658 olmaqla cəmi 4704 plan yeri nəzərdə tutulur. 1602 yer üzrə qəbul isə dövlət sifarişi əsasında aparılır.

İxtisas seçimi avqustun 19-dək davam edəcək.

# "Formula 1"-də məktəblər bağlanacaq?



**Bakıda keçiriləcək "Formula 1" üzrə Azərbaycan Qran-prisi ilə əlaqədar Bakı Şəhər Halqasının keçdiyi küçələr və trekin əhatə etdiyi ərazilər sentyabrın 19-dan 21-dək bağlı qalacaq.**

Qeyd edək ki, Bakıda hər zaman "Formula 1" yarışları tədris zamanı ilə üst-üstə düşdükdə, yarışın keçirildiyi əraziyə yaxın bütün orta məktəblər bağlanırdı.

Koronavirus pandemiyası zamanında (distant) onlayn təhsil məsələsi gündəmə gəldiyi üçün bundan sonrakı zamanlarda "Formula 1" yarışları keçirilərkən həmin ərazidəki məktəblər bağlanaraq müəyyən olunmuş müddətdə onlayn dərslər keçirilirdi.

**Maraqlıdır, bu il də Azərbaycanda "Formula 1" zamanı bəzi məktəblərdə dərslər onlayn ola bilərmi?**

Bununla bağlı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə ünvanladığı sorğuya qurumdan verilən cavabda qeyd olunub ki, əgər "Formula 1"ə görə məhdudiyyətlərlə bağlı müraciət olarsa, məsələ nəzərdən keçiriləcək:

""Formula 1" üzrə Azərbaycan Qran-prisinin həyata keçirilməsi və yarışların əhatə olunacağı ərazilərdə müəyyən məhdudiyyətlərin tətbiqi ilə əlaqədar aidiyyəti qurumlardan Elm və Təhsil Nazirliyinə müraciət daxil olduğu təqdirdə sözügedən məsələyə baxıla bilər".



# Afaq Bəşirqızı "Şərəf" ordeni ilə təltif edildi

**Xalq artisti Afaq Bəşir qızı Səfərova "Şərəf" ordeni ilə təltif edilib.**

Prezident İlham Əliyev bununla bağlı sərəncam imzalayıb. Sərəncamla o, bu ordenə Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə layiq görülüb. Qeyd edək ki, avqustun 15-də Afaq Bəşir qızı Səfərovanın 70 yaşı tamam olur.

# Metroda doğulan körpə və anası evə buraxıldı




**Bakı Metropoliteninin "20 Yanvar" stansiyasında doğulan və Respublika Klinik Xəstəxanasına hospitalizasiya olunan körpə və anası bu gün evə buraxılıb.**

Bu barədə TƏBİB-dən bildirilib.

Hazırda hər ikisinin vəziyyəti qənaətbəxş qiymətləndirilir. Körpə sərbəst şəkildə tənəffüs alır, qidalanır və sağlamdır.

Hamiləliyin patologiyası şöbəsində müalicə alan ananın da vəziyyəti müsbət qiymətləndirilir. Tibb müəssisəsində körpəyə lazımi qulluq qaydaları barədə anaya ətraflı məlumatlar verilib.

Xatırladaq ki, 08.08.2025-ci il tarixində saat 07:40 radələrində Bakı Metropoliteninin "20 Yanvar" stansiyasından doğuş səbəbilə Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinə müraciət qeydə alınıb.

Təcili tibbi yardım briqadası tərəfindən ana və körpəsinə ilkin tibbi yardım göstərildikdən sonra ixtisaslı yardım göstərilməsi üçün Respublika Klinik Xəstəxanasına hospitalizasiya olunub.

# Bu şəxslərə pensiya verilməsi dayandırılacaq

**Azərbaycanda vətəndaşlara təyin olunmuş əmək pensiyalarının yalnız müəyyən hallarda dayandırılması və ya ləğv edilməsi mümkündür. Bu, əsasən pensiya təyinatı zamanı qanunvericiliyin tələblərinin pozulması aşkarlandıqda həyata keçirilir.**

Mövzu ilə bağlı bizim.media-ya açıqlama verən **millət vəkili Vüqar Bayramov** bildirib ki, pensiya təyinatı zamanı müəyyən edilmiş qaydalar pozulduğu halda bu ödənişlərin dayandırılması mümkündür: "Ölkədə əmək pensiyalarının üç əsas növü mövcuddur: yaşa görə, əlilliyə görə və valideynlərini itirməyə görə əmək pensiyası. Yaşa görə əmək pensiyası alan şəxslərin ödənişləri ləğv edilmir, yalnız qanun pozuntusu aşkarlandığı hallarda artıq ödənilmiş məbləğlər geri qaytarılır.

Əlilliyə və valideynlərini itirməyə görə təyin olunan pensiyalar isə qanunvericiliyə uyğun olaraq tənzimlənir. Əgər pensiya təyinatı zamanı müəyyən edilmiş qaydalar pozulubsa, bu ödənişlərin dayandırılması mümkündür", - deyə o bildirib. Millət vəkili həmçinin vurğulayıb ki, pensiya sisteminin şəffaflığı və qanunvericiliyə uyğunluğunun təmin olunması üçün müvafiq yoxlamalar mütəmadi olaraq aparılır.

# Turistlər Azərbaycanda nə qədər pul xərcləyir?

**Dövlət Statistika Komitəsi "Azərbaycanda turizm" məcmuəsi yayıb. Hesabata görə, 2019-cu ildə Azərbaycana 3 milyon 170,4 min əcnəbi gəlib, 2020-ci ildə ziyarətçilərin sayı 795,7 min nəfərə, 2021-ci ildə 791,8 min nəfərə düşüb.**

2022-ci ildə ölkəyə 1 milyon 602,3 min, 2023-cü ildə 2 milyon 85,8 min, 2024-cü ildə 2 milyon 626,7 min əcnəbinin qədəm basdığı bildirilir.

Sırf turizm məqsədilə gələnlərin sayı belə göstərilir: 2019-cu il - 2 milyon 863,5 min nəfər, 2020-ci il - 519,4 min nəfər, 2021-ci il - 461,7 min nəfər, 2022-ci il - 1 milyon 58,1 min nəfər, 2023-cü il - 1milyon 402,6 min nəfər, 2024-cü il - 1 milyon 855,1 min nəfər.

Rəsmi açıqlamaya əsasən, 2019-cu ildə xarici turistlər Azərbaycanda 2,9 milyard manat, 2020-ci ildə 414,7 milyon manat, 2021-ci ildə 492,6 milyon manat, 2022-ci ildə 1,3 milyard manat, 2023-cü ildə 2,4 milyard manat, 2024-cü ildə 3,4 milyard manat xərcləyib.



## Antonio Koşta Prezident İlham Əliyevə zəng etdi

**Avqustun 14-də Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta Prezident İlham Əliyevə zəng edib.**

Antonio Koşta Vaşinqtonda Azərbaycanla Ermənistan arasında ABŞ Prezidentinin şahidliyi ilə bəyannamənin imzalanması, sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında sazişin paraflanması və regional nəqliyyat dəhlizi ilə əlaqədar əldə olunmuş nailiyyətlər münasibətilə dövlətimizin başçısını təbrik edib. Təbriklərə görə minnətdarlığını ifadə edən Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin təşəbbüskarının və sülh müqaviləsinin mətninin müəllifinin məhz ölkəmiz olduğunu xatırladıb. Vaşinqtonda əldə olunmuş nailiyyətlərin əhəmiyyətini vurğulayan dövlətimizin başçısı bu məsələdə ABŞ Prezidenti Donald Trampın xüsusi rolunu qeyd edib. Prezident İlham Əliyev Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan regionu arasında maneəsiz nəqliyyat bağlantısı üzrə razılaşmanın önəminə toxunub.

Dövlət başçısı və Antonio Koşta Azərbaycan-Avropa İttifaqı əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparıb, qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.



## Azərbaycanda da kriptovalyutalardan istifadə ediləcək?

**"Mərkəzi Bank xüsusi tənzimləmə rejiminin ilk mərhələsi üzrə sınaq dövrlərinin başa çatdığını bəyan edib. Sınaq müddətində 4 innovativ məhsulun qiymətləndirilməsi həyata keçirilib. 2 istiqamət üzrə qiymətləndirmə nəticələri uğurlu hesab olunub, digərləri üzrə məqsədəuyğun hesab edilməyib".**

Bu barədə **iqtisadçı-deputat Vüqar Bayramov** sosial şəbəkə hesabında paylaşım edib.

Deputat dəstəklənən layihələr məhz kriptovalyuta əməliyyatları ilə bağlı olduğunu deyib.

"Belə ki, kriptovalyuta əməliyyatlarını daha təhlükəsiz və şəffaf şəkildə icra etmək üçün "m10" tətbiqinin "Binance" platformasına inteqrasiyası nəzərdə tutulur. İstifadəçilər bu inteqrasiya vasitəsilə "Binance" cüzdanlarına mədaxil və məxaric edə bilərlər. Digər layihə "kriptobroker platforması" virtual aktivlərinin asan və təhlükəsiz şəkildə alışı, satışı və saxlanılması imkanlarını yaradır. Xüsusi tənzimləmə rejimi çərçivəsində sınaqların keçirilməsində məqsəd, həmçinin, bu istiqamətdə normativ-hüquqi bazanı formalaşdırmaq və təkmilləşdirməkdir.

Mərkəzi Bank hələ 2019-cu ildən blokçeyn əsaslı Rəqəmsal İdentifikasiya Sisteminin yaradılması layihəsinin icrasına başlayıb. Blokçeyn texnologiyasının tam tətbiqi imkanlarının araşdırılması virtual pul bazarının inkişafı baxımından vacibdir.

Mərkəzi Bankın test layihələri daha yaxın gələcəkdə Azərbaycanda kriptovalyutaların buraxılması və istifadəsinə imkan yarada bilər. Qlobal maliyyə əməliyyatları intensiv şəkildə virtuallaşdığı üçün Azərbaycanda da kriptovalyutalardan istifadə və sistem inteqrasiyası əsas çağırışlardan biridir", - deyə deputat qeyd edib.

## V qrup üzrə 4704 plan yeri nəzərdə tutulur

**2025/2026-cı tədris ili üçün respublika ali təhsil müəssisələrində V ixtisas qrupunda Azərbaycan və rus bölmələri, hər iki bölmənin birgə müsabiqəsi üzrə tələbə qəbulu planı və dövlət sifarişi üzrə yerlərin sayı təqdim edilib.**

Dövlət İmtahan Mərkəzindən bildirilib ki, 2025/2026-cı tədris ili üçün ali təhsil müəssisələrinin V ixtisas qrupunda Azərbaycan bölməsi üzrə 1829 və rus bölməsi üzrə 217, hər iki bölmənin birgə müsabiqəsi üzrə 2658 olmaqla cəmi 4704 plan yeri nəzərdə tutulur. 1602 yer üzrə qəbul isə dövlət sifarişi əsasında aparılır.

İxtisas seçimi avqustun 19-dək davam edəcək.

# "Formula 1"-də məktəblər bağlanacaq?



**Bakıda keçiriləcək "Formula 1" üzrə Azərbaycan Qran-prisi ilə əlaqədar Bakı Şəhər Halqasının keçdiyi küçələr və trekin əhatə etdiyi ərazilər sentyabrın 19-dan 21-dək bağlı qalacaq.**

Qeyd edək ki, Bakıda hər zaman "Formula 1" yarışları tədris zamanı ilə üst-üstə düşdükdə, yarışın keçirildiyi əraziyə yaxın bütün orta məktəblər bağlanırdı.

Koronavirus pandemiyası zamanında (distant) onlayn təhsil məsələsi gündəmə gəldiyi üçün bundan sonrakı zamanlarda "Formula 1" yarışları keçirilərkən həmin ərazidəki məktəblər bağlanaraq müəyyən olunmuş müddətdə onlayn dərslər keçirilirdi.

**Maraqlıdır, bu il də Azərbaycanda "Formula 1" zamanı bəzi məktəblərdə dərslər onlayn ola bilərmi?**

Bununla bağlı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə ünvanladığı sorğuya qurumdan verilən cavabda qeyd olunub ki, əgər "Formula 1"ə görə məhdudiyyətlərlə bağlı müraciət olarsa, məsələ nəzərdən keçiriləcək:

""Formula 1" üzrə Azərbaycan Qran-prisinin həyata keçirilməsi və yarışların əhatə olunacağı ərazilərdə müəyyən məhdudiyyətlərin tətbiqi ilə əlaqədar aidiyyəti qurumlardan Elm və Təhsil Nazirliyinə müraciət daxil olduğu təqdirdə sözügedən məsələyə baxıla bilər".



## Afaq Bəşirqızı "Şərəf" ordeni ilə təltif edildi

**Xalq artisti Afaq Bəşir qızı Səfərova "Şərəf" ordeni ilə təltif edilib.**

Prezident İlham Əliyev bununla bağlı sərəncam imzalayıb. Sərəncamla o, bu ordenə Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə layiq görülüb. Qeyd edək ki, avqustun 15-də Afaq Bəşir qızı Səfərovanın 70 yaşı tamam olur.

## Metroda doğulan körpə və anası evə buraxıldı




**Bakı Metropoliteninin "20 Yanvar" stansiyasında doğulan və Respublika Klinik Xəstəxanasına hospitalizasiya olunan körpə və anası bu gün evə buraxılıb.**

Bu barədə TƏBİB-dən bildirilib.

Hazırda hər ikisinin vəziyyəti qənaətbəxş qiymətləndirilir. Körpə sərbəst şəkildə tənəffüs alır, qidalanır və sağlamdır.

Hamiləliyin patologiyası şöbəsində müalicə alan ananın da vəziyyəti müsbət qiymətləndirilir. Tibb müəssisəsində körpəyə lazımi qulluq qaydaları barədə anaya ətraflı məlumatlar verilib.

Xatırladaq ki, 08.08.2025-ci il tarixində saat 07:40 radələrində Bakı Metropoliteninin "20 Yanvar" stansiyasından doğuş səbəbilə Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinə müraciət qeydə alınıb.

Təcili tibbi yardım briqadası tərəfindən ana və körpəsinə ilkin tibbi yardım göstərildikdən sonra ixtisaslı yardım göstərilməsi üçün Respublika Klinik Xəstəxanasına hospitalizasiya olunub.

## Bu şəxslərə pensiya verilməsi dayandırılacaq

**Azərbaycanda vətəndaşlara təyin olunmuş əmək pensiyalarının yalnız müəyyən hallarda dayandırılması və ya ləğv edilməsi mümkündür. Bu, əsasən pensiya təyinatı zamanı qanunvericiliyin tələblərinin pozulması aşkarlandıqda həyata keçirilir.**

Mövzu ilə bağlı bizim.media-ya açıqlama verən **millət vəkili Vüqar Bayramov** bildirib ki, pensiya təyinatı zamanı müəyyən edilmiş qaydalar pozulduğu halda bu ödənişlərin dayandırılması mümkündür: "Ölkədə əmək pensiyalarının üç əsas növü mövcuddur: yaşa görə, əlilliyə görə və valideynlərini itirməyə görə əmək pensiyası. Yaşa görə əmək pensiyası alan şəxslərin ödənişləri ləğv edilmir, yalnız qanun pozuntusu aşkarlandığı hallarda artıq ödənilmiş məbləğlər geri qaytarılır.

Əlilliyə və valideynlərini itirməyə görə təyin olunan pensiyalar isə qanunvericiliyə uyğun olaraq tənzimlənir. Əgər pensiya təyinatı zamanı müəyyən edilmiş qaydalar pozulubsa, bu ödənişlərin dayandırılması mümkündür", - deyə o bildirib. Millət vəkili həmçinin vurğulayıb ki, pensiya sisteminin şəffaflığı və qanunvericiliyə uyğunluğunun təmin olunması üçün müvafiq yoxlamalar mütəmadi olaraq aparılır.

## Turistlər Azərbaycanda nə qədər pul xərcləyir?

**Dövlət Statistika Komitəsi "Azərbaycanda turizm" məcmuəsi yayıb. Hesabata görə, 2019-cu ildə Azərbaycana 3 milyon 170,4 min əcnəbi gəlib, 2020-ci ildə ziyarətçilərin sayı 795,7 min nəfərə, 2021-ci ildə 791,8 min nəfərə düşüb.**

2022-ci ildə ölkəyə 1 milyon 602,3 min, 2023-cü ildə 2 milyon 85,8 min, 2024-cü ildə 2 milyon 626,7 min əcnəbinin qədəm basdığı bildirilir.

Sırf turizm məqsədilə gələnlərin sayı belə göstərilir: 2019-cu il - 2 milyon 863,5 min nəfər, 2020-ci il - 519,4 min nəfər, 2021-ci il - 461,7 min nəfər, 2022-ci il - 1 milyon 58,1 min nəfər, 2023-cü il - 1milyon 402,6 min nəfər, 2024-cü il - 1 milyon 855,1 min nəfər.

Rəsmi açıqlamaya əsasən, 2019-cu ildə xarici turistlər Azərbaycanda 2,9 milyard manat, 2020-ci ildə 414,7 milyon manat, 2021-ci ildə 492,6 milyon manat, 2022-ci ildə 1,3 milyard manat, 2023-cü ildə 2,4 milyard manat, 2024-cü ildə 3,4 milyard manat xərcləyib.

YENİ MÜSAVAT
N 143 (8753) 15 avqust 2025



# Qeysəriyyə əməliyyatına "son" çağırışı - artan ölümlər

## Ekspertlərdən xəbərdarlıq: "Qeysəriyyə əməliyyatı yalnız həyati zərurət olduqda tətbiq edilməlidir!"

**Qusar Rayon Mərkəzi Xəstəxanasında qeysəriyyə əməliyyatı zamanı bir qadının ölümü ölkədə bu doğuş üsulunun təhlükəsizliyi ilə bağlı narahatlıqları yenidən gündəmə gətirib. "Yeni Müsavat" xəbər verir ki, Piral kənd sakini, 31 yaşlı Yasəmən Ospatova əməliyyat zamanı komaya düşüb və iki gün reanimasiyada qaldıqdan sonra vəfat edib. Körpənin vəziyyətinin normal olduğu bildirilsə də, ailənin faciəsi böyükdür. Faktla bağlı Qusar Rayon Prokurorluğunda araşdırma aparılır.**

Mərhumun yaxınlarının "Shimal.News"a verdiyi açıqlamaya görə, hadisə həkimin səhlənkarlığı nəticəsində baş verib. Onlar iddia edirlər ki, əməliyyat zamanı qadının damarı kəsilib, nəticədə çoxlu qan itkisi baş verib. Həkimlərin verdiyi rəsmi rəyə əsasən isə, qadının ölümünə ürək qapağına laxtalanmış qan getməsi səbəb olub. Ailənin sözlərinə görə, əməliyyatdan əvvəl onlardan 500 manat pul istənilib, lakin maddi imkanlarının çatmadığını deyib 400 manatla razılaşıblar. Əməliyyatdan bir gün sonra isə məbləğ geri qaytarılıb və "dərmanlar üçün lazım ola bilər" cavabı verilib.

TƏBİB-in yaydığı rəsmi açıqlamada isə bildirilir ki, əməliyyatdan sonra qadında bir sıra ciddi tibbi ağırlaşmalar - ağciyər arteriyasının tromboemboliyası, ağciyər, qaraciyər, böyrək və ürək çatışmazlığı, həmçinin tromboz müşahidə olunub, gecə saatlarında vəziyyəti yenidən kritikləşib, saat 23:40-da isə vəfat edib.

Ümumiyyətlə, son illərdə qeysəriyyə əməliyyatı bir çox qadın üçün daha rahat və təhlükəsiz doğuş üsulu kimi qəbul edilir. Doğuş ağrılarından qorxan bir çox gənc ana, səbəbli və ya səbəbsiz şəkildə bu üsula üstünlük verir. Əksər hallarda klinikalarda həkimlər də analara bu əməliyyatı təklif edirlər. Halbuki qeysəriyyə əməliyyatı ciddi cərrahi müdaxilədir və onun da öz risk və fəsadları mövcuddur.

Təəssüf ki, ana ölümləri ilə bağlı statistika bu cür halların əsasən bölgələrdə baş verdiyini göstərir. Məsələn, bu ilin mart ayında Sabirabadda 10 gün ərzində 3 körpə qeysəriyyə əməliyyatı nəticəsində həyatını itirib. Bu, həm də səhiyyə sistemində mövcud olan problemləri - bölgələrdə ixtisaslı həkim çatışmazlığını, tibbi avadanlıqların və şəraitin bəzən normal sanitariya standartlarına cavab verməməsini və korrupsiya hallarını bir daha ortaya qoyur. Nəticədə qadınlar daha təhlükəsiz hesab etdikləri üçün Bakıya və ya böyük şəhərlərdəki özəl klinikalara üz tutmağa məcbur qalırlar. Lakin hər kəsin buna imkanı olmur.

Ölkə üzrə qeysəriyyə əməliyyatlarının artması ilə yanaşı, təbii doğuşa marağın azaldığı da müşahidə olunur. Mütəxəssislər bildirirlər ki, qeysəriyyə əməliyyatı yalnız tibbi zərurət olduqda tətbiq olunmalıdır. Onun səbəbsiz və ya sadəcə, rahatlıq məqsədilə seçilməsi ana və uşaq sağlamlığı üçün əlavə risklər yarada bilər. Belə ki, qeysəriyyə cərrahi əməliyyat olduğu üçün infeksiya, qanaxma, narkoz fəsadları və bərpa dövrünün uzanması kimi çətinliklər müşahidə oluna bilər. Körpə üçün də müəyyən tənəffüs və adaptasiya problemləri riski artır. Statistik göstəricilərə görə, 2011-ci ildə qeysəriyyə əməliyyatı ilə doğuşların sayı 25 min civarında olub. Sonrakı illərdə bu rəqəm mütəmadi artaraq 2015-ci ildə 45942-yə, 2016-cı ildə isə 46555-ə çatıb. Bu da onu göstərir ki, artım tendensiyası yeni deyil, artıq bir neçə onillikdir davam edir və 2020-ci ildən sonra daha da sürətlənib. Bu dövrdə doğuşların ümumi sayı azalsa da, qeysəriyyənin payı durmadan artıb.

Azərbaycan qanunvericiliynə görə, qeysəriyyə əməliyyatı yalnız müəyyən edilmiş tibbi əsaslara əsaslanaraq aparıla bilər. Tibbi əsas olmadan cərrahiyyə müdaxiləsi həm fərdi (vəzifəli şəxsə), həm də təşkilati (tibb müəssisəsinə) səviyyədə ciddi maliyyə cəzaları ilə müşayiət edilir. Qeyri-qanuni qeysəriyyə əməliyyatı" halları üçün vəzifəli şəxslər 5000-7000 manat arasında, hüquqi şəxslər isə 10000-15000 manat arası inzibati cərimə ilə cəzalandırılır. Bu cərimələr tibbi göstəriş olmadan aparılan qeysəriyyə əməliyyatlarına qarşı ciddi müdafiə mexanizmi hesab olunur. İndiyə kimi toplanan məlumatlara əsasən, Azərbaycan qanunvericiliyində qeysəriyyə əməliyyatları zamanı ölüm və ya ağır fəsadlar nəticəsində meydana gələn hallara dair konkret cinayət sanksiyaları açıq şəkildə təsbit edilməyib. Lakin mütəxəssislərə görə, belə hallarda digər cinayət və ya inzibati hüquq pozuntuları üzrə məsuliyyət yarana bilər - məsələn, tibbi sübutlara uyğun olmayan müdaxilələr, tibbi nəzarətsiz müdaxilələr və s.

**Sosioloq Lalə Mehralı** hesab edir ki, qeysəriyyə əməliyyatı yalnız həyati zərurət olan hallarda tətbiq edilməlidir. Onun sözlərinə görə, bu əməliyyat bədənin doğuşa təbii hazırlığını pozur, hormon balansını dəyişir və nəticədə ana südü ilə qidalanma faizi aşağı düşür. Bu hal neonatoloqlar üçün süni qida istifadəsinə keçmək imkanı yaradır. Bəzi həkimlər qadınları əsaslandırılmamış səbəblərlə qeysəriyyəyə yönəldirlər. Onun fikrincə, "gözü zəifdir", "təzyiqi var", "körpə tərs durur" kimi səbəblər artıq gülünc bəhanələrə çevrilib və həkimlər yeni səbəblər uydurmağa çalışırlar: "Vaxtından əvvəl qeysəriyyə əməliyyatlarının böyük əksəriyyəti özəl klinikalarda həyata keçirilir. Normal doğuş adətən 38-ci həftədən sonra baş verir, lakin qeysəriyyə əməliyyatları çox zaman 33-35-ci həftələrdə baş tutur. Bu, bəzi həkimlərin körpənin doğuş kanalına düşməməsi üçün ehtiyat tədbiri kimi təqdim edilir. Həmçinin bəzi klinikalarda küvəz ehtiyacını süni şəkildə yaratmaq üçün vaxtından əvvəl doğuşlara üstünlük verildiyi bildirilir. Qadınlara əvvəlcədən bu barədə məlumat verilmir və körpə doğulandan sonra birbaşa küvəzə yerləşdirilir. Bu da klinikalar üçün əlavə gəlir mənbəyi hesab olunur".

**Ginekoloq Xanım Adıgözəlova** isə bildirir ki, hər iki doğuş üsulunun - həm təbii doğuşun, həm də qeysəriyyə əməliyyatının - özünəməxsus üstünlükləri və riskləri var. Onun fikrincə, təbii doğuş daha fizioloji və orqanizmin uyğunlaşdığı prosesdir, sağalma müddəti daha qısadır və doğuşdan sonra komplikasiya riski azdır: "Bununla belə, bəzi hallarda doğuş prosesində baş verə biləcək çətinliklər və ana-körpə üçün yaranan risklər səbəbilə qeysəriyyə əməliyyatı qaçılmaz olur. Lakin bu üsul infeksiya, qanaxma, qan laxtalanması kimi risklər daşıyır və uzunmüddətli fəsadlara səbəb ola bilər.

Təbii doğuş zamanı qadın və körpənin orqanizmi daha yaxşı uyğunlaşır, ananın süd istehsalı vaxtında başlayır və körpənin tənəffüs sisteminin adaptasiyası daha asan olur. Vaginal doğuşdan sonra qadının bərpası adətən 6-8 həftə çəkirsə, qeysəriyyədən sonra bu müddət 12 həftəyə qədər uzana bilər. Digər tərəfdən, qeysəriyyə əməliyyatı sonrakı hamiləliklərdə müəyyən risklər, məsələn, plasenta problemləri və uşaqlıq divarının zəifləməsi kimi fəsadlar yarada bilər.

Bütün bu faktlar onu göstərir ki, doğuş üsulu seçimi hər hamiləlik üçün fərdi şəkildə, həkim nəzarətində və tibbi göstərişlər əsasında aparılmalıdır. Hər qadın təbii doğuş üçün yaradılıb, lakin tibbi səbəblər olduqda qeysəriyyə əməliyyatı həyatı xilas edən bir üsula çevrilə bilər. Əsas məsələ bu seçimlərin tibbi zərurət əsasında, ana və körpənin sağlamlığı ön planda tutularaq edilməsi və bu prosesdə heç bir halda maddi maraqların üstünlük təşkil etməməsidir".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# Kəramət Şükürovun ölüm səbəbi nədir?

## Yaxın dostu: "Nadir hallarda içirdi, amma..."



**"Kəramət Şükürovun xəstəliyi və ya ailəvi problemi yox idi, mən bunu hiss etməmişəm".**

Bu sözləri "Teleqraf"a **Azərbaycan Yazıçılar Birliyinin şöbə müdiri Qəşəm Nəcəfzadə** dostu şair Kəramət Şükürovun ölümü ilə bağlı danışarkən deyib.

Kəramət Şükürovun ölüm səbəbinə gəldikdə o bildirib ki, şairin trombdan və ya ürəktutmasından öldüyü ehtimal olunur.

Qəşəm Nəcəfzadə hadisəni mediadan öyrəndiyini və çox pis olduğunu deyib: "Kərəmətin 68 yaşı var idi, fiziki cəhətdən çox sağlam idi. Heç nədən şikayəti olmayan adamlar belə qəfil ölürlər. Düzdür, ayda-ildə bir dəfə içirdi, amma onda da çox içirdi. Mənimlə də oturub içdiyi olub. Çox içəndə ona deyirdik ki, bu qədər içməsin. İçsə də sağlam idi. Çox yaxşı, saf, təmiz insan idi, onu bəlkə də mənim qədər tanıyan yox idi".

Qəşəm Nəcəfzadə Kəramət Şükürovla Gəncə Dövlət Universitetində oxuduğunu bildirib: "Mən birinci kursda oxuyanda, o məndən üç kurs yuxarıda oxuyurdu. Biz bir otaqda qalmışıq. Kərarmət Şükürov, Əjdər Ol və mən otaq yoldaşı olmuşuq. Kəramət çox istedadlı idi. Tələbə vaxtı bizim Gəncə uşaqları ilə problemimiz olanda Kəramət dadımıza çatırdı, bizi, gənc tələbələri qoruyurdu, bizə dəstək olurdu. Kəramətə gücü çatan, onu döyə bilən yox idi. Bir çox səviyyəli, tanınmış yazıçıları, şairləri bizə o sevdirmişdi.

Kəramət evimizə tez-tez gəlib-gedirdi. Cavan vaxtı anam onun adını eşidəndə dedi, qəşəng addır, evlənsən və oğlun olsa, adını Kəramət qoyarsan. Mən də onun adını Kəramət Böyükçölə verdim. Bakıda da görüşürdük. Onun həyat yoldaşı Könül xanım mənim tələbə yoldaşım olub. Onların 1 oğlu, 2 qızı var. Kəramətin ailəsi Türkiyədə yaşayır, o özü də arada Türkiyəyə gedib-gəlirdi. Çox yaxşı ailəsi var. Oğlu da, həyat yoldaşı da hekayələr yazırdı".



# Generalın məhkəməsində adı keçən polkovnik vəfat etdi

**Ehtiyatda olan polkovnik Rasim İbrahimov vəfat edib. Moderator.az xəbər verir ki, bu barədə mərhumun yaxınları məlumat yayıb. Onun son üç ildə ağır xəstəlikdən əziyyət çəkdiyi deyilir.**

Qeyd edək ki, Rasim İbrahimov Azərbaycan Ordusunda birinci ordu korpusunun, daha sonra Hərbi Hava Qüvvələrinin maliyyə xidmətinin rəisi işləyib. O, 2020-ci ildə ehtiyata buraxılıb.

R.İbrahimovun adı ordudakı 143 milyonluq mənimsəmə cinayəti ilə bağlı ittiham olunan general-mayor Nizami Məmmədov, Hərbi Hava Qüvvələrinin maliyyə xidmətinin keçmiş rəisi, polkovnik Cəlal Kazımov və digərlərinin məhkəməsində hallanıb.

YENİ MÜSAVAT
N 143 (8753) 15 avqust 2025

# Avropa Parlamentindən Bakıya yeni hücum

## Dünyanın Vaşinqton anlaşmasını alqışladığı bir vaxtda, qurumun mövqeyi Rusiya və İranla üst-üstə düşür - sərt reaksiya

**Avropa İttifaqının ayrı-ayrı qurumlarının Azərbaycan-Aİ münasibətlərində zaman-zaman yaranan pozitiv fonu pozmaq cəhdləri ardıcıl şəkildə davam edir. Avropa Parlamenti ötən həftə Vaşinqtondakı görüşlə bağlı bəyanatında Azərbaycana qarşı növbəti dəfə qərəz nümayiş etdirib. Belə ki, avropalı deputatlar yenidən Azərbaycana qarşı köhnə və əsassız ittihamlar irəli sürüblər. Avropa Parlamentinin fikrincə, Azərbaycan "öz qoşunlarını Ermənistan ərazisindən çıxarmalı" və "erməni əsirləri və köçkün Qarabağ erməniləri ilə bağlı məsələləri həll etməlidir".**

"Yeni Müsavat" yada salır ki, son olaraq bu ilin martında Avropa Parlamenti Bakıda saxlanılan ermənilərlə bağlı növbəti dəfə qərəzli, şər-böhtan dolu qətnamə qəbul etmişdi. Separatçı-quldurların, insanlıq əleyhinə cinayətlər törətmiş ünsürlərin "dərhal və qeyd-şərtsiz azad edilməsini" tələb etmişdi. Sənəd adlanan kağız parçasında hətta müttəhimlərə qadağan edilmiş psixotrop dərmanların yeridilməsi barədə sərsəmləmə yer alıb.



Birincisi, Ermənistan ərazisində Azərbaycan qoşunları yoxdur. İkincisi, Bakı və İrəvan ikitərəfli formatda sərhədin delimitasiyası və demarkasiyası üzərində işləmək barədə razılığa gəliblər. Bir sözlə, birtərəfli tələblər irəli sürmək, özünü Ermənistan rəhbərliyindən daha böyük erməni kimi qələmə verməyə çalışıblar.

"Erməni əsirləri məsələsinin həlli" tələblərinin absurdluğu daha qabarıq görünür. Yada salaq ki, Azərbaycan hərbi əməliyyatlar başa çatdıqdan dərhal sonra "hamı üçün" prinsipi ilə erməni hərbi əsirləri Ermənistana təhvil verib. Azərbaycan Cinayət Məcəlləsinin bir sıra maddələri, o cümlədən terrorizm, hərbi cinayətlər və insanlığa qarşı cinayətlər ilə ittiham olunan şəxslərin "məhbus" kimi buraxılması ən azı siyasi saxtakarlıqdır. Bu şəxslər, ümumiyyətlə, "məhbus" deyillər və onların "məsələsini" Azərbaycan məhkəməsi həll edəcək.

Nəhayət, "köçkün Qarabağ erməniləri" məsələsini gündəmə gətirmək və onların qaytarılması üçün Azərbaycandan "tədbirlər görməyi" tələb etmək cəhdləri ucuz spekulyasiyanın növbəti nümunəsi olaraq qalır. Bir daha xatırladaq: Azərbaycan lap əvvəldən Qarabağ ermənilərinə vətəndaşlıq, siyasi və mədəni hüquqlar verməyə hazır olduğunu bildirib. Amma bu ermənilər özləri Azərbaycanın suverenliyinin bərqərar olduğu ərazilərdə yaşamaq istəmirdilər və Ermənistana keçməyə üstünlük verirdilər. Sadə dillə desək, heç kim onları "köçürməyib". Özləri könüllü olaraq "köçüblər". **Bəs indi Avropa Parlamentinin deputatları Azərbaycandan hansı "tədbirləri" tələb edirlər?**

Avropa İttifaqından tutmuş, Avropa Parlamentinə qədər Avropa strukturları bu gün Bakı ilə İrəvan arasında münasibətlərin tənzimlənməsi prosesindən tamamilə sıxışdırılıb. Birincisi, Avropa Parlamentində həqiqətən yüksək səviyyəli peşəkarlar adlandırıla bilməyən çoxlu deputat var. İkincisi, son vaxtlar səs-küylü qalmaqalların da göstərdiyi kimi, bu struktur ifrat dərəcədə korrupsiyalaşıb. Üçüncüsü, Avropa Parlamentində həmişə kifayət qədər türkofoblar, islamofoblar və statuslarını alver etməyə və səs verməyə hazır olan, sadəcə, lobbiçilər var. Ermənistanla Azərbaycan arasında münaqişə davam edərkən, bu mövzuda korrupsiya pullarını işlətmək və ksenofoblardan tutmuş etnik ermənilərə qədər "hədəf qrupların" səslərini toplamaq mümkün idi.

Amma indi Vaşinqtonda Bakı və İrəvan kifayət qədər uzanan münaqişəyə son qoyurlar. Sülh gündəminin böyük çətinliklə də olsa, irəli getdiyi bir şəraitdə Avropa mandatına malik bu çox təcrid olunmuş insanlar, sadəcə olaraq, öz keçmişlərinin girovuna çevrildilər. Maraqlıdır ki, Avropa Parlamenti rəhbərliyinin bu mövqeyi Rusiya və İranın hakimiyyət orqanlarının sözləri və əhval-ruhiyyəsi ilə üst-üstə düşür.

*Bəs AP niyə Vaşinqton razılaşmasına kölgə salır? Avropa İttifaqının Bakı ilə İrəvanın sülh anlaşmasını alqışladığı halda, onun qanunverici orqanı niyə Brüsselin kursuna qarşı gedir, Tehranla Moskvanın "çörəyinə yağ çəkir"?*

**Bu mövzuda danışan deputat Arzuxan Əlizadə** "Yeni Müsavat"a bildirdi ki, Avropa Parlamenti hələ keçmiş münaqişənin olduğu dövrdən Azərbaycana qarşı qərəzli mövqe tutub, böhtan dolu qətnamələr qəbul edib. Parlamentin üzvü sonrakı dönəmdə də AP-nin işğala məruz qalan tərəfə təzyiqlər göstərdiyini, sənədlər qəbul etdiyini xatırlatdı. "Bu sənədlərin nəticəsi olmadı. Sadəcə, Avropa Parlamentinin Azərbaycana düşmən münasibəti təəssüf doğurur. Bu da həmin avropalı deputatların erməni lobbisinin pullarının əsirinə çevrilməsindən irəli gəlir", - deyə A.Əlizadə vurğuladı.

Deputat qeyd etdi ki, Bakıda mühakimə olunan erməniəsilli hərbi canilərin məhkəməsi açıq və şəffaf keçirilir: "Əslində onların yanında Köçəryan, Sərkisyan və digər cinayətkarlar da olmalı idi. Hazırda məhkəmə proseslərində onların törətdiyi cinayətlər sübutlarla ortaya qoyulur, zərərçəkmişlərin ifadələri dinlənilir. Araik və digər canilərin həbsində hər hansı siyasi element yoxdur. Bu adamlar Azərbaycan ərazilərində qeyri-qanuni rejim yaradıb, silahlanıb, dövlətə qarşı çıxıb, hərbi cinayətlərə yol veriblər. Ona görə də mühakimə olunurlar. Avropalı deputatların ölkələrində də oxşar addımlar atılsaydı, Qərb dövlətlərinin məhkəmələri eyni tribunalı qurardı. Ona görə də Avropa Parlamentinin onları siyasi girov adlandırması absurd çağırışdır və quruma yaraşmayan, onu gözdən salan yanaşmadır. Görünür ki, erməni lobbisinin Avropa Parlamentində təsirləri qalmaqdadır".

Deputat onu da söylədi ki, Ağ Evdə baş tutan 8 avqust razılaşmasından sonra Avropa Parlamentinin bu ritorikası tamamilə pozuculuq xarakteri daşıyır və regionda sülhə xidmət etmir: "Bu bəyanatlar da tarixin arxivinə gömüləcək. Necə ki, bundan əvvəl qəbul edilən qətnamələrin hüquqi əsası yox idi və təsiri olmadı. Bu gün beynəlxalq ictimaiyyət Bakı və İrəvanın sülh razılaşmasını alqışlayır, Tramp əldə edilən nəticəni özü üçün şərəf bilir, Avropa Birliyinin baş diplomatı Kaya Kallas anlaşmanı dəstəkləyir, amma bir qrup avropalı deputat çirkin addımlar atır.

Onların ittihamları heç bir fakta söykənmir. Azərbaycan dəfələrlə bəyan edib ki, Ermənistan ərazisinə müdaxilə olunmayıb, sadəcə, Ordumuz strateji yüksəkliklərə nəzarət edir ki, hazırda şərti sərhəddir. 17 bəndlik sülh mətnində də sərhədlərin müəyyən olunması razılaşdırılıb. Paşinyan özü təsdiqlədi ki, elə yerlər var Azərbaycanındır, elə yerlər var Ermənistanın. Bunu da delimitasiya ayırd edəcək, sonra demarkasiya aparılacaq.

Ermənilərin Qarabağa qayıdışına gəlincə, Bakının mövqeyi bəllidir. Ağ Ev görüşündə də Tramp bu haqda danışmadı, Paşinyan da suala münasibət bildirmədi. Ona görə də Avropa Parlamenti əsassız şəkildə məsələni gündəmə gətirir".

**❑ Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

## İsveçrə ermənipərəstləri məyus etdi



### İsveçrədə ermənipərəst parlamentarilərin Azərbaycan əleyhinə irəli sürdükləri qətnamə layihəsi rədd edilib

**Cenevrə kantonunun parlamentinin bir sıra ermənipərəst üzvləri tərəfindən 5 noyabr 2024-cü il tarixində irəli sürülmüş "Dağlıq Qarabağın ilhaqı və Azərbaycanın siyasi məhbuslarının azadlığa buraxılması" adlı 24.321 saylı qətnamə layihəsi Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasındakı səfirliyi tərəfindən aparılmış iş nəticəsində 11 avqust 2025-ci il tarixində İsveçrə Parlamentinin yuxarı palatası olan Kantonlar Şurasının Xarici Əlaqələr Komitəsi tərəfindən rədd edilib.**

Bu barədə AZƏRTAC-a ölkəmizin İsveçrədəki səfirliyindən məlumat verilib.

Bildirilib ki, bununla yanaşı, həmin Komitənin vitse-prezidenti, Azərbaycana qarşı qərəzli mövqeyi ilə seçilən Karlo Sommaruga tərəfindən irəli sürülmüş və yalnız "məhbuslara" və "erməni mədəni irsinin mühafizəsinə" istinad edən yeni qərar layihəsi də, 5 əleyhinə, 4 lehinə, 3 bitərəf olmaqla, həmçinin gündəlikdən çıxarılıb.

Qeyd edək ki, İsveçrə Parlamentinin yuxarı palatasının Xarici Əlaqələr Komitəsinin mətbuat məlumatında Cenevrə kantonal parlamentinin məlum təxribat xatakterli təşəbbüsünün birtərəfli və yalnız Azərbaycan tərəfinə tələblər sürdüyü bildirilib və belə yanaşmaya etiraz ifadə olunub.

İsveçrə Parlamentinin sözügedən qərarı bir daha radikal erməni qrupları tərəfindən dəstəklənən parlamentarilərin uğursuzluğunu nümayiş etdirib.

YENİ MÜSAVAT
N 143 (8753) 15 avqust 2025

# 102-ci bazadakı hərəkətliliyin sirri açıldı - Bakıya qarşı...

## Rusiya Cənubi Qafqazda "bütün problemləri həll etmək" üçün kifayət qədər qoşunu olmaqla Bakı və İrəvanı təhdid edir - regionda yeni təxribatlara hazırlıq anonsu



**Son aylar Rusiya ilə Azərbaycan arasında informasiya qarşıdurması epizodik hücumlar toplusu olmaqdan çıxıb və sistematik vəziyyət alıb. Bu prosesdə Rusiyanın media xadimləri xüsusi rol oynayır, çünki onların bəyanatları geniş ictimai-siyasi təsirə malikdir. Solovyovun Rusiyanın Cənubi Qafqazda da Xüsusi Hərbi Əməliyyat zərurəti yarana biləcəyi haqda dedikləri də bu qəbildədir. Rusiya 3 ilə yaxındır ki, Ukraynada Xüsusi Hərbi Əməliyyat adı altında işğalçı müharibə aparır. Solovyov da bu fikirlə təkcə Azərbaycanı deyil, Ermənistanı da təhdid edib.**

Rusiya Dövlət Dumasının Müdafiə Komitəsinin üzvü Andrey Kolesnik isə "absatz.media"ya deyib ki, Bakı getdikcə daha çox Moskva haqqında sərt bəyanatlar verməyə başlayıb. Onun sözlərinə görə, Rusiyanın Cənubi Qafqazda asayişi bərpa etmək üçün qoşunlarının sayı "oradakı bütün problemləri həll etməyə kifayətdir".

Təsadüfi deyil ki, Gümrüdə yerləşən 102-ci Rusiya hərbi bazasının son həftələrdə ciddi şəkildə gücləndirildiyi bildirilir. Son günlər Rusiya tərəfindən Ermənistanın Gümrü şəhərində yerləşən 102-ci hərbi bazaya hərbi texnika, silah-sursat və digər logistika avadanlıqlarının daşınması ilə bağlı məlumatlar ictimai diqqəti cəlb edib. Sosial mediada və bəzi media qurumlarında yayılan bu informasiyalar regionda gərginliyin artması ehtimalını gündəmə gətirib. Erməni mediasının yazdığına görə, hər gün bazaya hərbi yükün olduğu bir neçə təyyarə enir. Tədarüklərin məqsədi məlum deyil, lakin müxtəlif fərziyyələr irəli sürülür. Versiyalardan birinə görə, Moskva bununla regionda mümkün dəyişikliklərə hazırlaşır.

Ümumən bildirilirdi ki, məqsəd Kremlin Cənubi Qafqaz ölkələrinə hərbi-siyasi təzyiqini artırmaqdır. Ermənistanda yerləşən Rusiyanın 102-ci hərbi bazası 1995-ci ildə yaradılıb və bu günə qədər fəaliyyət göstərir. 2010-cu ildə Rusiya prezidentinin İrəvana səfəri zamanı müqavilənin müddəti daha 49 il - 2044-cü ilə qədər uzadılıb. 102-ci hərbi baza Rusiya Federasiyasının Şimali Qafqaz hərbi dairəsinin Qafqazdakı Qoşun Qruplaşmasına tabedir. Bazada digər silah və hərbi texnika ilə yanaşı, S-300 zenit-raket kompleksi və Miq-29 qırıcıları da var. Bazanın şəxsi heyəti 4 mindən çox hərbi qulluqçudan ibarət idi. Əgər Moskva həqiqətən də təyyarələrlə canlı qüvvə və hərbi texnika daşıyırsa, onda bazanın potensialı daha da artmaqdadır. Politoloqlar da hesab edir ki, Rusiyanın Ermənistana silah daşıması regional sabitlik baxımından ciddi təhdidlər yaradır.

**Politoloq Elxan Şahinoğlu** Rusiyanın artıq addımlar atdığını düşünür. Onun şərhinə görə, Azərbaycana qarşı hərəkətlər Ukrayna üzərindən həyata keçirilir: "Rus ordusu Kremlin təlimatı Azərbaycan Dövlət Neft Şirkətinin Ukraynadakı yanacaq mərkəzlərini hədəf alıb. Əvvəlcə Azərbaycan qazını Ukraynaya nəql edən boru xəttinə, bir neçə gün sonra isə Dövlət Neft Şirkətinin Odessa şəhərindəki yanacaq mərkəzinə raket zərbələri endirdilər. Bununla Kreml Azərbaycanla onsuz da gərgin olan münasibətləri daha da gərginləşdirib. Dövlət Neft Şirkətinin xarici ölkədəki yanacaq mərkəzinə zərbə endirmək və orada çalışan insanlara zərər yetirmək faktiki Azərbaycanı hədəf almaq deməkdir. Buna görə də rəsmi Bakı adekvat addımlar barədə düşünmək məcburiyyətindədir".

E.Şahinoğluya görə, belə vəziyyətdə Azərbaycanın Ukraynaya silah satışına embarqonu qaldıra biləcəyi anonsunun verilməsi tam yerindədir.

Bundan əlavə, politoloqun fikrincə, paralel şəkildə İrəvana da xəbərdarlıqlar var: "Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi Aleksey Fadeevin "Ermənistanın Sünik vilayəti üzərindən kommunikasiya xətlərinin açılması zamanı rusiyalı sərhədçilərin mövcudluğu nəzərə alınmalıdır" açıqlamasından ilk növbədə baş nazir Nikol Paşinyan narahat olmalı və Ermənistan Xarici İşlər Nazirliyi vasitəsilə cavab verilməlidir. Rusiya rəsmilərinin və diplomatlarının İrəvana növbəti mesajı "Ermənistan-İran sərhədində rusiyalı sərhədçilərin dayandığını nəzərə alın" şəklindədir. Paşinyan bundan da çıxış yolu tapa bilər. Baş nazir necə ki, İrəvan hava limanında xidmət edən rusiyalı sərhədçiləri evlərinə göndərdi, eləcə də Ermənistan-İran sərhədindəki rusiyalı hərbçilərin xidmətindən imtina edə bilər".

**Siyasi şərhçi Aqşin Kərimov** da Moskvanın bəzi təxribatlara əl atacağını istisna etmir. Lakin onun qənaətinə görə, Rusiyanın əvvəlki gücü qalmayıb ki, genişmiqyaslı addımlar atsın. Kərimovun sözlərinə görə, Rusiya Azərbaycan və Ermənistan arasında Vaşinqtonda Donald Trampın vasitəçiliyi ilə əldə edilmiş razılaşmaları və ondan irəli gələn öhdəlikləri sabotaj etmək üçün müxtəlif vasitələrə əl ata bilər: "Rusiyanın mövcud informasiya və analitik məkanının təhlili göstərir ki, Kreml bu istiqamətdə artıq müəyyən təlimatlar verib. Kremldən gələn açıqlamalar və bunun mediada əks-sədası belə düşünməyə əsas verir ki, Rusiya hazırkı sülh planından razı deyil. Ehtimal olunur ki, Moskva Vaşinqton razılaşmalarını üstələyəcək alternativ təkliflər paketi hazırlamağa çalışacaq, lakin bunu necə həyata keçirə biləcəyi sual altındadır. Çünki Rusiyanın "sülh" planının özü şübhəlidir. Ona görə də Rusiya Azərbaycana qarşı təzyiq vasitələrini işə sala, Rusiyadakı vətəndaşlarımıza və soydaşlarımıza qarşı müəyyən tədbirlər həyata keçirə bilər".

Analitik hesab edir ki, digər tərəfdən, yaxın günlərdə - 15 avqustda Alyaskada Donald Tramp və Vladimir Putin arasında görüş planlaşdırılır və nəticələri Cənubi Qafqaz, postsovet məkanı və Yaxın Şərq üzrə mümkün bölgülərə təsir göstərə, həmçinin Rusiyanın Azərbaycan-Ermənistan məsələsinə münasibətini formalaşdıra bilər.

"Əgər Tramp-Putin razılaşması baş tutmasa, Rusiya Cənubi Qafqazda daha aqressiv siyasət yürüdə bilər. Bu ssenaridə Rusiyanın əsas diqqət yönləndirəcəyi ölkə Ermənistan olacaq. Bu yolla Rusiya Ermənistanı təsir dairəsində saxlamağa və onu Azərbaycana qarşı təxribatlara hazırlamağa cəhd edə bilər. Lakin Ukraynadakı müharibə kampaniyası səbəbindən Rusiyanın geosiyasi gücü əvvəlki səviyyədə deyil və mövqelərində geriləmə müşahidə olunur. Məhz bu səbəbdən Rusiyanın hansı alternativ addımlar ata biləcəyi diqqət mərkəzində olmalıdır", - deyə ekspert belə şərh edib.

**Emil SALAMOĞLU, "Yeni Müsavat"**




## General Bəxtiyar Ersayı kim əvəz edəcək?

**Prezident Rəcəb Tayyib Ərdoğanın sərəncamı ilə Türkiyənin Azərbaycandakı Xidmət Qrupunun komandanı, Azərbaycan müdafiə nazirinin müşaviri, ordu generalı Bəxtiyar Ersaya yeni vəzifə verilib. Sərəncama əsasən, Bəxtiyar Ersay Türkiyə Silahlı Qüvvələri Quru Qoşunlarının Birinci Ordusunun komandanı təyin olunub.**

Xatırladaq ki, avqustun 5-də imzalanmış digər sərəncamla Bəxtiyar Ersaya ordu generalı rütbəsi də verilib.

Qeyd edək ki, Bəxtiyar Ersay 2021-ci ildən Türkiyənin Azərbaycandakı Xidmət Qrupunun komandanı kimi xidmətə başlayıb. O, 2022-ci ildə Azərbaycan müdafiə nazirinin müşaviri təyin edilib.

Prezident Rəcəb Tayyib Ərdoğanın son sərəncamı bir məsələni gündəmə gətirib: məsələ burasındadır ki, general Bəxtiyar Ersayın komandan təyin olunduğu Birinci Ordu korpusu Türkiyənin əsas ordu birləşməsi sayılır və qərargahı İstanbul şəhərində yerləşir. Belədə sual yaranır ki, Bəxtiyar Ersay Azərbaycan müdafiə nazirinin müşaviri vəzifəsini tərk edərək Türkiyəyə qayıdacaq?

Məsələ ilə əlaqədar hərbi mənbələrdən modern.az-a bildirilib ki, general Bəxtiyar Ersayın Azərbaycandakı vəzifəsinə, yeni müdafiə nazirinin müşaviri kimi fəaliyyətinə davam edib-etməyəcəyi Türkiyə tərəfinin bu barədə verəcəyi qərardan asılı olacaq.

General B.Ersay əslən Türkiyənin Tunceli vilayətinin Çemişgezek mahalındandır.

O, İşıklar hərbi liseyində, sonra hərbi akademiyada təhsil alıb.

Akademiyanı kapitan rütbəsilə bitirən Ersay hərbi attaşe kimi Türkiyəni Tunisdə təmsil edib.

Prezident Müəmmar Qəddafinin ölümü ilə əlaqədar Liviyada baş verən qarmaqarışıqlıq zamanı minlərlə Türkiyə vətəndaşının bu ölkədən sağ-salamat təxliyəsini təmin edən əməliyyatın başında B.Ersay dayanmışdı.

Son illər Türkiyədə PKK-ya qarşı ən böyük antiterror əməliyyatları həyata keçirən generallardan biri də B.Ersay olub.

General B.Ersayın sonuncu vəzifəsi Türkiyə Quru Qoşunları komandanının əməliyyat məsələləri üzrə müavini postu idi.

B.Ersay 2020-ci ildəki Vətən müharibəzi zamanı Türkiyə Ordusunun Azərbaycandakı Xidmət Qrupu Komandanlığına təyin edilmişdi.



# Dünyanın gözü Alyaskada

## Avqustun 15-də ABŞ və Rusiya prezidentləri arasında təkbətək, yalnız tərcüməçilərin iştirakı ilə danışıqlar olacaq; **Tramp:** "Putinlə növbəti görüş olmaya bilər"

**Avqustun 15-də ABŞ və Rusiya prezidentləri arasında görüş olacaq. Məlumdur ki, Rusiya-Amerika sammiti ərəfəsində ABŞ Prezidenti Donald Tramp bir sıra Avropa liderləri ilə videokonfrans keçirib. Trampla söhbətdən sonra Fransa Prezidenti Makron bildirib ki, istənilən ərazi məsələsi yalnız Ukrayna tərəfinin iştirakı ilə həll oluna bilər. Tramp özü Avropa liderləri və Ukrayna prezidenti ilə söhbəti "10-dan 10" qiymətləndirib.**

"Putinlə növbəti görüş olmaya bilər".

Tramp rusiyalı həmkarı Vladimir Putinlə Alyaskada nəzərdə tutulan görüşündən danışarkən deyib. Tramp jurnalistlərə bildirib: "Ehtiyac duyduğumuz cavabları almasam, düşünəcəyəm ki, növbəti görüşün keçirilməsi məqsədəuyğun deyil, o zaman ikinci görüş də olmayacaq".

Bu gün keçiriləcək görüşə gəlincə, sammit Elmendorf-Richardson hərbi bazasında baş tutacaq.

Ağ Evin mətbuat katibi Kerolin Levitt bildirib ki, sammitin ən azı bir hissəsi Tramp və Putin arasında təkbətək, yalnız tərcüməçilərin iştirakı ilə keçiriləcək. Bu dəfə görüş üçün uzunmüddətli hazırlıq aparılmayıb və Tramp sammiti "sınaq görüşü" kimi qiymətləndirib.

"The Telegraph" nəşrinin məlumatına görə, ABŞ Prezidenti Donald Tramp Rusiya lideri Vladimir Putini Ukraynada müharibəyə son qoymağa razı salmaq üçün ona bəzi təkliflər etməyi planlaşdırır. Trampın Putinə təklifləri arasında Rusiyanın Alyaskanın təbii sərvətlərinə çıxışının açılması və Rusiya aviasiya sənayesinə qarşı bəzi Amerika sanksiyalarının ləğvi daxildir.

Putinə təkliflər arasında hazırda Rusiyanın işğalı altında olan Ukrayna ərazilərində nadir torpaq minerallarına çıxış imkanı da daxildir.

"The Washington Post"un yazdığına görə isə, əgər Putin təklifləri qəbul etməkdən imtina edərsə, bu, Trampın səbr və qətiyyətinin sınağı olacaq: "Rəsmilər Trampın aylardır təhdid etdiyi sanksiyaları tətbiq etməyə hazır olduğunu bildirir. Putin bundan imtina edərsə, nəticələr onun üçün ağır olacaq", - mənbə əlavə edib. Eyni zamanda qəzet qeyd edir ki, Putin yalnız qismən razılaşaraq, barışıq güvvəyə minənə qədər hərbi əməliyyatları davam etdirməklə prosesi uzada bilər.

ABŞ Prezidenti Donald Tramp və Rusiya lideri Vladimir Putin arasında görüşə hazırlıqlar fonunda daha bir ideya test üçün mediaya atılıb: iddialara görə, Zelenski Alyaskaya gedə və şərtlər uyğun olarsa, Rusiya-Amerika sammitinə qatıla bilər.

CNN-in məlumatına görə, Zelenskinin adı birbaşa olaraq Tramp və Putin arasında keçirilən görüşün iştirakçısı kimi çəkilməyib, lakin Ağ Ev onun bəzi görüşlərdə, xüsusən də ilk iki görüşdən sonra iştirakını tamamilə istisna etmir. Öz növbəsində "NBC News" mənbələri qeyd edir ki, Ukrayna lideri bu danışıqlarda iştirak etmək üçün hələ dəvət edilməyib, amma Ağ Ev administrasiyasının yüksək rütbəli rəsmisi Zelenskinin də Alyaskada olacağına ümid etdiyini bildirib.

Ukraynanın ABŞ-dəki keçmiş səfiri, diplomat Valeriy Çalıy hesab edir ki, Ukrayna prezidenti Alyaskaya getməməlidir, çünki belə bir səfər səhv nəticələr verə bilər. Diplomat yazdığı analitik yazıda qeyd edib ki, birincisi, Zelenskinin Alyaskaya gedişi ABŞ prezidentinin Putinlə görüş yeri kimi ABŞ-ni seçməklə bağlı səhv qərarına kömək edəcək: "Axı bu, Putini beynəlxalq təcriddən çıxaracaq və rus hərbi cinayətkarının addımlarını qanuniləşdirəcək. Yeri gəlmişkən, bu, heç kimin açıq şəkildə danışmayacağı o sirli motivlər və mövzulardan başqa, Rusiya-Amerika görüşünün yeganə nəticəsi ola bilər. İkincisi və ən əsası, Ukrayna rəhbərliyinə bu cür yanaşma - arxa planda olmaq- Ukrayna Müdafiə Qüvvələrinin diplomatiya üçün böyük baha başa gəldiyi ölkənin subyektivlik səviyyəsinə tamamilə uyğun gəlmir. ABŞ prezidenti açıq-aydın vasitəçi rolunu oynayır, nəinki müstəqil - məsələn, Səudiyyə Ərəbistanındakı danışıqlarda olduğu kimi - və ya fəal müşahidəçi - məsələn, Türkiyədə olduğu kimi - danışıqlar prosesində çox iştirak edən biri kimi davranır. Ona görə də Ukrayna sülh danışıqlarının imitasiyasına qoşulmamalıdır".

"Əvəzində tərəfdaş ölkələrin, xüsusən də həmin ABŞ, Almaniya, Böyük Britaniya, Fransa liderləri ilə ikitərəfli görüşlər keçirmək lazımdır. Həm də sonda hər kəsin masa arxasında razılaşdırılmış, aydın və güclü danışıqlar mövqeyi ilə Ukraynanın tək qoyulmayacağı çoxtərəfli sammit olmalıdır", - deyə diplomat fikrini yekunlaşdırıb.

"The Wall Street Journal" yazır ki, ABŞ prezidenti Vladimir Zelenskinin danışıqlarda iştirakının əleyhinə çıxış edib və bunun prosesi poza biləcəyindən ehtiyat edib.

Göründüyü kimi, diplomatiya baxımından rəsmi Kiyev üçün vəziyyət daha əvvəl qeyd edildiyi qədər acınacaqlı deyil. Belə ki, Trampın Ukraynanı onun iştirakı olmadan Putinlə bölüşdürəcəyi barədə məlumatlar hələlik təsdiqlənmir. Çünki Trampın bütün gözlənilməz bəyanatları və addımlarına rəğmən, ABŞ Ukraynanın və Avropanın mövqeyi ilə hesablaşmaya bilmir. Həmçinin ABŞ-nin öz maraqları Ukraynanın Putinin istədiyi şəkildə parçalanmasına və daha da zəifləndilməsinə imkan vermir.

❑ **"Yeni Müsavat"**

# İran indi də Ermənistanı təhdid etdi

## Paşinyan ABŞ-də imzalanan saziş və bəyannamənin Tehran və Moskva üçün faydalı olacağını deyir; Vilayəti indi də Ermənistana "barmaq silkələdi"

**"Hesab edirəm ki, saziş və bəyannamə İran və Rusiya üçün kifayət qədər nəzərəçarpacaq faydaları ehtiva edir. Çünki əgər bu saziş reallaşdırılarsa və həyata keçirildiyi təqdirdə, məsələn, İran Fars körfəzindən Qara dənizə qədər dəmiryolu üzrə çıxış əldə edəcək. Həm Rusiya, həm də İran iki ölkə arasında dəmir yolu əlaqəsi yarada biləcək".**

Ermənistanın baş naziri Nikol Paşinyan "Fox News" telekanalına müsahibəsində belə deyib.

"Demək istədiyim odur ki, əgər bu sazişin iqtisadi tərəfinə diqqət yetirilsə, o zaman təkcə Ermənistan, Azərbaycan, ABŞ və Türkiyə deyil, həmçinin Rusiya və İran çox mühüm və həqiqətən nəzərəçarpan, faktiki olaraq misligörünməmiş faydalar əldə edəcəklər. Çünki indi Cənubi Qafqazdan İranı Rusiya ilə birləşdirən dəmiryol xətti yoxdur.

Ona görə də mən bunu bütün ölkələrə, o cümlədən, yeri gəlmişkən, bütün beynəlxalq ictimaiyyətə - beynəlxalq sabitlik və təhlükəsizlik üçün əhəmiyyətli fayda gətirə biləcək çox mühüm saziş hesab edirəm", - deyə Paşinyan qeyd edib.

Amma İran indi başqa "havadadır". İranın ali dini lideri Əli Xameneinin baş müşaviri Əli Əkbər Vilayəti Tehranda Ermənistan xarici işlər nazirinin müavini Vahan Kostanyanla görüşüb.

İran mətbuatı yazır ki, görüşün əvvəlində Kostanyan bölgədə baş verən son hadisələr və Vaşinqtonda keçirilən danışıqlar barədə açıqlamalar verib və iki ölkə arasında tarixi münasibətlərin və mehriban qonşuluğun qorunub saxlanılmasının vacibliyini vurğulayıb.

İranın "Mehr" agentliyinin yaydığı rəsmi məlumata görə, bundan öncə Azərbaycanı hədələyən Vilayəti indi də Ermənistana "barmaq silkələyib". Vilayəti Zəngəzur dəhlizi ilə bağlı Vaşinqton razılaşmasını nəzərdə tutaraq, Kostanyana xəbərdarlıq edib ki, "İran öz təhlükəsizliyinə qarşı heç bir addıma dözməyəcək".

Xameneinin beynəlxalq məsələlər üzrə müşaviri olan Vilayəti erməni nazir müavininə deyib ki, "regionun taleyini müstəsna olaraq region ölkələri həll etməlidir".

Beləliklə də, İran indiyə qədər arxasında durduğunu bəyan etdiyi "qardaş Ermənistanın" hakimiyyətini hədələməyə başlayır. Bu, onu göstərir ki, Vaşinqtonda Zəngəzur razılaşmasının əldə edilməsindən sonra İranla Ermənistan arasında gərginliyin mümkünlüyünü proqnoz edənlər yanılmır. Çünki fars rejimi heç cür region ölkələrinin müstəqil qərar qəbul etmək haqqını tanımaq və bununla hesablaşmaq istəmir. Lakin buna məcburdur və kənardan bu cür boş hədə-qorxular gəlməkdən başqa heç nə edə bilmir...

Yeri gəlmişkən, məlumdur ki, İran Prezidenti Məsud Pezeşkianın gələn həftə Ermənistana rəsmi səfəri gözlənilir. Bu səfər bölgədə baş verən son geosiyasi proseslər fonunda xüsusi siyasi anlam daşıyır.



Rəsmi Tehran bu addımı ilə həm öz regional maraqlarını qorumağa, həm də Cənubi Qafqazda mövqeyini gücləndirməyə çalışır.

İranın İrəvana bu səfəri onun həm Ermənistan, həm də Azərbaycanla balanslı münasibətləri saxlamaq siyasətinin bir hissəsidir. Xüsusilə Zəngəzur dəhlizi məsələsi Tehranın həssaslıqla yanaşdığı mövzulardandır.

İran prezidentinin bu səfəri Paşinyan hökumətinə balanslı siyasət aparmaq barədə dolayı mesaj kimi qiymətləndirilə bilər. Tehran Ermənistanın tam Qərbə yönəlməsinin qarşısını almaq niyyətindədir.

Pezeşkianın İrəvana səfəri həm də bölgədə fəal olan digər güclərə - xüsusilə Türkiyə və Rusiyaya ünvanlanan diplomatik siqnaldır. İran Ermənistanla münasibətləri dərinləşdirməklə həm Türkiyənin normallaşma təşəbbüslərində ikinci plana düşmək istəmir, həm də Rusiyanın bölgədə zəifləyən təsirindən doğan boşluğu qismən doldurmağa çalışır.

"Ermənistan və İran arasında strateji tərəfdaşlıq haqqında saziş imzalanacaq".

"Teleqraf" xəbər verir ki, bu barədə erməni politoloq Armine Marqaryan bildirib.

"İran Prezidenti Məsud Pezeşkian avqustun 19-da Ermənistana səfər edəcək. Bəzi məlumatlara görə, tərəflər Ermənistan və İran arasında strateji tərəfdaşlıq haqqında sənəd imzalayacaqlar", - ekspert qeyd edib.

❑ **"Yeni Müsavat"**



# Moskva 10 noyabr üçtərəfli bəyanatını qabartmağa başlayır

## Bakı və İrəvan 10 noyabr razılaşmasından niyə çıxmır?

**"Sünik bölgəsindən keçən kommunikasiya marşrutları açılarkən Rusiya sərhədçilərinin burada olması nəzərə alınmalıdır". Bunu jurnalistlər üçün keçirdiyi brifinqdə Rusiya Xarici İşlər Nazirliyinin İnformasiya Siyasəti Departamentinin direktor müavini Aleksey Fadeyev avqustun 8-də Vaşinqtonda Azərbaycan, Ermənistan və ABŞ liderlərinin imzaladığı üçtərəfli bəyannaməni şərh edərkən deyib. Fadeyevin sözlərinə görə, Rusiya Azərbaycan, Ermənistan və Rusiya liderlərinin 2020-2022-ci illəri əhatə edən üçtərəfli sazişləri qanuni hesab edir, çünki tərəflərdən heç biri bu sazişlərdən çıxdığını açıqlamayıb.**

"Beynəlxalq sülh və tərəqqi üçün Tramp marşrutu" adlandırılacaq nəqliyyat dəhlizi layihəsi haqqında danışan Fadeyev deyib: "Rusiya Xarici İşlər Nazirliyi layihənin təfərrüatlarını öyrənəcək, yeri gəlmişkən, hələlik təfərrüatlar ictimaiyyətə açıqlanmayıb..."

"Biz həmçinin bildirdik ki, Ermənistanın Aİ-yə üzvlüyü və Rusiya sərhədçilərinin Sünik bölgəsində olması kimi amilləri nəzərə almaq lazımdır. Bunlar regionda nəqliyyat kommunikasiyalarının bloklanması ilə bağlı qərarlar hazırlanarkən nəzərə alınmalıdır", - Fadeyev əlavə edib.

Göründüyü kimi, Moskva 10 noyabr üçtərəfli bəyanatını və ondan sonrakı iki ildə imzalanmış digər üçtərəfli sənədləri əsas götürür və qabartmağa başlayır. *O zaman 8 avqust üçtərəfli Vaşinqton razılaşmasından sonra Bakı və İrəvan 10 noyabr üçtərəfli bəyanatından niyə çıxmır? Çıxmalıdırmı?*

**Politoloq Yusif Bağırzadə** "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasından, regionda kommunikasiya xətlərinin blokadadan çıxmasından, daimi sülhün əldə edilməsindən ən çox narahatlıq keçirənlərdən biri də Rusiyadır. Rusiya üçün Azərbaycan və Ermənistan arasında gərginlik və ümumiyyətlə, "Dağlıq Qarabağ" adlı problem hər iki ölkəyə təsir göstərmək və təzyiq altında saxlamaq üçün bir imkan idi. Artıq belə bir problem qalmadığı üçün və xüsusilə də tərəflərin sülh sazişini imzalamağa yaxın olması, Zəngəzur dəhlizi ilə bağlı qərarların qəbulu baş tutduğu üçün Rusiya çox böyük narahatlıq keçirir: "Moskva indi də 2020-ci ilin 10 noyabrında və ondan sonrakı dövrdə imzalanmış sənədləri əsas götürərək nəyəsə nail olmağa çalışır. Rusiya Xarici İşlər Nazirliyinin İnformasiya Siyasəti Departamentinin direktor müavini Aleksey Fadeyevi narahat edən əsas məqam bəyanatın 9-cu maddəsi ilə bağlıdır. Məlumdur ki, üçtərəfli bəyanatın 9-cu maddəsi bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin blokdan çıxarılmasını, Ermənistanın Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinə zəmanət verməsini və nəqliyyat yoluna nəzarətin Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları tərəfindən həyata keçirilməsini nəzərdə tuturdu. Lakin keçən 5 il ərzində bu istiqamətdə hər hansı bir irəliləyişə nail olunmadı və Rusiya da bu istiqamətdə Ermənistana hər hansı bir irad bildirmədi, yolun açılması üçün təzyiq göstərmədi. İndi Azərbaycan və Ermənistan bu istiqamətdə razılıq əldə ediblər və bunun üçün mütləq şəkildə üçtərəfli bəyanatdan çıxmaq haqqında qərarın qəbuluna hər hansı ehtiyac da yoxdur".

Politoloq fikrini bununla əsaslandırdı ki, 10 noyabr 2020-ci ildə Rusiya, Azərbaycan və Ermənistanın liderləri tərəfindən imzalanmış bəyanat atəşkəs bəyanatıdır: "Bu bəyanat özündə bir sıra öhdəlikləri də ehtiva edirdi və həmin öhdəliklərdən irəli gələn vəzifələrin bir qismi də məhz elə Rusiya və onların "sülhməramlı" kontingenti tərəfindən icra edilmirdi. Digər bir tərəfdən, Zəngəzur dəhlizi Ermənistan dövlətinin yurisdiksiyasındadır və bu ölkə də həmin dəhlizi ABŞ operatoruna verməyi daha məqbul hesab edib. Bu, Ermənistanın suveren hüququdur. Bizim şərtlər nəzərə alındığı üçün, yəni Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz gediş-gəlişə təminat verildiyi üçün dəhlizin hansı adla olur-olsun açılması bizim də maraqlarımıza cavab verir. Odur ki, Rusiyanın bu məsələdə 2020-2022-ci il sənədlərinə müraciət etməsinin hər hansı əsası yoxdur".

Y.Bağırzadə sonda dedi ki, Rusiya zamanında 10 noyabr üçtərəfli bəyanatının 9-cu bəndinin tələbinin icrasına Ermənistana təsir göstərməklə nail olsaydı, dəhlizin açılması ilə bağlı üzərinə düşən vəzifəni yerinə yetirsəydi, indi oyundankənar vəziyyətdə də qalmazdı: "Rusiya indi özünün etdiyi səhvlərin əziyyətini çəkir və bu səhvlərdən qaynaqlanan proseslərin onun ziyanına olduğunu düşünərək narahatlıq keçirir, ətrafa qəzəb püskürür. Halbuki günahkar Rusiyanın özüdür. Azərbaycan 5 ilə yaxın müddətdə dəfələrlə çağırışlar edirdi ki, 10 noyabr üçtərəfli bəyanatın 9-cu bəndinin tələbləri yerinə yetirilsin. Ermənistan bu tələbləri yerinə yetirməkdən yayınırdı, Rusiya isə buna görə lazımi addımlar atmırdı. İndi proseslərin gedişatından narahat olub 10 noyabr bəyanatını və digər üçtərəfli imzalanmış sənədləri yada salırlar. Ancaq artıq gecdir. Bunu zamanında etmək lazım idi ki, müsbət nəticəsi də olsun".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Ermənistan Konstitusiyası yenidən yazılacaq

## Paşinyan Bakının tələbini qəbul etdi - Ermənistan Konstitusiyası yenidən yazılacaq



**Ermənistan baş naziri Nikol Paşinyan Azərbaycanın Ermənistan Konstitusiyasının dəyişdirilməsi ilə bağlı növbəti tələbinə razılıq verib.**

Bu barədə "Hraparak" qəzeti məlumat yayıb.

Nəşr bildirib ki, söhbət Azərbaycan və Türkiyəyə qarşı ərazi iddialarının yer aldığı Müstəqillik Bəyannaməsinə istinadın Ermənistan Konstitusiyasından çıxarılmasından gedir: "Bunu Vaşinqton sazişinin birinci bəndi sübut edir. Orada bildirilir: "Sülh müqaviləsi paraflandıqdan sonra biz sazişin imzalanması və yekun ratifikasiyası istiqamətində gələcək fəaliyyətlərin davam etdirilməsinin zəruriliyini qəbul edik və ölkələrimiz arasında sülhün qorunması və möhkəmləndirilməsinin vacibliyini vurğuladıq".

Bu razılaşmadan sonra Bakı bəyan elədi ki, Paşinyana ev tapşırığı veriblər: o, konstitusiyanı dəyişməlidir və sülh sazişi bundan sonra imzalanacaq.

Qeyd edək ki, Konstitusiya İslahatı Şurası uzun fasilədən sonra həftələr öncə iclas keçirib. Əldə etdiyimiz məlumata görə, şura tezliklə yeni konstitusiyanın mətninin hazırlanması üçün aktiv şəkildə iclaslar keçirəcək".

# Minsk Qrupunun ləğvi üçün danışıqlar başlayır

## Minsk Qrupu və digər əlaqəli institutların ləğvi məsələsini Nazirlər Şurası həll etməlidir




**Finlandiya Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) fəaliyyətdə olan sədri kimi, Azərbaycan və Ermənistanın Minsk prosesi və əlaqəli strukturların bağlanması ilə bağlı birgə müraciətinə cavab olaraq iştirakçı dövlətlərlə müzakirələrə rəhbərlik edəcək.**

Bu barədə "Report"a təşkilatın mənzil-qərargahından bildirilib. Təşkilatın rəsmi nümayəndəsi öz növbəsində bildirib ki, ATƏT Katibliyi bu müzakirələr nəticəsində qəbul edilən bütün qərarları həyata keçirməyə hazırdır.

ATƏT-də təsdiq ediblər ki, avqustun 11-də Azərbaycan və Ermənistandan Minsk Qrupu və digər əlaqəli institutların ləğvi məsələsinin Nazirlər Şurası tərəfindən həll edilməsinin təklif olunduğu birgə müraciət daxil olub.

"Biz avqustun 8-də Vaşinqtonda imzalanmış razılaşmaları alqışlayırıq, Azərbaycanı və Ermənistanı bu nailiyyət münasibətilə təbrik edir və ABŞ Administrasiyasının bu prosesə dəstəyini yüksək qiymətləndiririk", - təşkilatdan vurğulanıb.

Təşkilatın rəsmi nümayəndəsinin sözlərinə görə, ATƏT Cənubi Qafqazda davamlı sülh və sabitliyin təmin edilməsinə yönəlmiş bütün səylərə sadiq qalır.

ATƏT-in Minsk Qrupu 1992-ci ildə Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə kömək etmək üçün yaradılmışdı. Azərbaycanın qələbəsi ilə başa çatan 2020-ci ilin payızındakı Vətən müharibəsindən sonra rəsmi Bakı dəfələrlə bəyan edib ki, Qarabağ münaqişəsi həll olunub və belə olan halda nə ATƏT-in Minsk qrupuna, nə də onun institutlarına ehtiyac var. Bununla əlaqədar olaraq Azərbaycan Ermənistana Minsk Qrupunun ləğvi ilə bağlı ATƏT-ə birgə müraciət etməyi təklif edib. Avqustun 8-də Vaşinqtonda iki ölkənin xarici işlər nazirləri Azərbaycan, Ermənistan və ABŞ liderlərinin iştirakı ilə Minsk Qrupunun buraxılması haqqında birgə müraciət imzalayıblar. ATƏT-in Minsk Qrupunun ləğvi Azərbaycanın Ermənistanla sülh sazişi imzalamaq üçün irəli sürdüyü iki şərtdən biri idi.

Üç həmsədr ölkə - ABŞ, Rusiya və Fransadan başqa, qrupa Belarus, Almaniya, İtaliya, Türkiyə, Finlandiya və İsveç, Azərbaycan və Ermənistan daxildir.



# Sevgimizin məhkəmədə müdafiəsi

Zamin HACI
zaminhaci@gmail.com

**Deyir həkimliyə sənəd verənlərdə azalma hiss olunur. Millətin uşaqları niyə bu cür müqəddəs sənətə meyillənməsin? Mənim versiyam belədir: artıq həkimliyi 6-7-8, hətta bəzən 12 il oxumağa ehtiyac qalmayıbdır. Yox, bu, süni intellektin-zadın inkişafı, diaqnozu "Sərvər həkimin" deyil, serverlərin qoymağı və müalicəni kompüterlərin aparması ilə əlaqədar deyildir. Allaha şükür, hələlik bizi belə texnoloji sıçrayış təhlükəsi gözləmir. Məsələn, elektriki Tomas Edison 19-cu əsrdə kəşf eləsə də, mən keçən həftə Bakıda şam axtarırdım, tərslikdən normal dükanlardakı şamların hamısını camaat almışdı, tapdığım şam isə işıqdan çox his verirdi.**

Bəs xalqımızın burnufırtıqlı balalarında təbabət elminə marağın azalmasının əsas səbəbi nədir? Əgər dəllək klinika açırsa, saç ustası plastik cərrah işləyirsə, Narxozun tələbəsi stomatoloqdursa, tibb oxumağın mənası nədir ki? Heç bir mənası yoxdur. Üstəlik, gözünün ağı-qarası gedib oxusan axırda yaxşı maaş üçün xaricə getməlisən, orda da bizim diplomları qoz yerinə qoymurlar. Məsələn, Almaniyada çox zaman təzədən tibbi təhsil almaq lazım gəlir.

İkinci versiyam isə xalqın fiziki-ruhi sağlamlığının artmasına bağlıdır. Artıq vəziyyət elə həddə çatıb ki, insanlar bir-birini öldürməyə heç kim ölmür. Qətllər də ona görə çox mənasız səbəblər üzündən baş verməkdədir. Laçında qardaş qardaşı bal üstündə güllələyib, alışqan vermədiyi üçün Yevlaxda başqasını qətlə yetirib, ailəsi cehizlik lüsturu bəyənmədiyinə görə bəy intihar etdi, ofisiantı kababa görə şişlədilər və sairə - kriminogen mənzərəmiz belədir, maşallah. Yeni Azərbaycanda yaşamaq üçün hansısa ciddi səbəblər yoxdur deyə, ölmək üçün də artıq ciddi səbəblər qalmayıbdır (Bu afyorizmi xəstəxanada pataloji anatomiya bölməsinin qapısından asmaq olar, icazə verirəm).

Hakimlik iş azaldıqca, həkimlik iş də azalır. Bunu isə Ağır Cinayətlərin darvazasına təklif edirəm. "Əmək azad edir" şüarından pis deyil ki?

Diqqətli oxucular bilir, mən havayı söhbət yazmaram. Gəlin sizə Ali Məhkəmənin builki həyat və yaradıcılığından 2 fakt göstərim.

Birinci faktı dünən öyrəndik. AM qərar verib ki, çoxqatlı binanın yiyəsi kefi istəyəndə liftləri bağlaya bilməz. Hərçənd, oradan çox aydın olmurdu, gah yazmışdılar bağlaya bilər, gah yazılmışdı bağlamağa haqqı yoxdur. Məsələn, bunu kimsə başa düşübsə mənə də yazsın: "Ali Məhkəmənin mövqeyi belədir ki, liftlər bina sakinlərinin ümumi paylı mülkiyyətində olmaqla, bu hüquq mütləq deyil, bina sakinlərinin ümumi yığıncağının qərarı ilə və ya tərəflər arasında bağlanmış müqavilə ilə məhdudiyyətlərə məruz qala bilər".

Hər bir halda, lift müzakirələri ölkəmizdə söz azadlığını, diskussiya mühitini göstərir. Təxminən İsveç kimi yer olmaq üzrəyik.

İkinci fakt isə hələ may ayından yadımda qalmışdı. O vaxt Ali Məhkəmə ekspertlərə müraciət etmişdi ki, şərəf, ləyaqət, ictimai nüfuz-filan kimi hüquqların pozulmasında zərəri ödəmək işlərində uca dövlətimizə yardım əlini uzatsınlar. Müzakirəyə çıxarılan suallardan biri belə idi: "Qanunla qorunan qeyri-maddi nemətlərlə (həyat, sağlamlıq, bədən toxunulmazlığı, şəxsiyyət, şərəf, ləyaqət, şəxsi və işgüzar nüfuz, fikir, söz və vicdan azadlığı, ad, şəxsi və ailə sirri və s.) yanaşı, qanunla qorunmayan qeyri-maddi nemətlərin də (dostluq, sevgi, etibar, güvən, vicdan rahatlığı, diqqət, xatirələr, adət, ənənə və s. kimi əxlaqi və sosial dəyərlər) məhkəmə müdafiəsinin, habelə, onlara müdaxilə halında mənəvi zərərin ödənilməsinin mümkünlüyü".

Çox möhtəşəm plan idi. Ali Məhkəmə artıq xatirələrimizin, sevgimizin, vicdan rahatlığımızın da keşiyində durmağa çalışırdı. Doğrusu, iyunda ekspertlər toplaşıb bunu müzakirə etməliydi, heç bilmədim axırı nə oldu. Ümidvaram artıq sevgimizin mənəvi zərərini ödəmək mümkündür.

Şair bu məqamda lələyi mürəkkəbə batırıb görək nə yazıbdır: "Qıldı zülfün tək pərişan halimi xalin sənin, Bir gün, ey bidərd, sormazsan: nədir halin sənin?". Artıq buna görə bidərdə 10 sutka veriləcək.

Ya da 10 manat kontur atıb canını məşuqdan qurtarsın.

---




# Azərbaycan neftini gözdən salanların izi tapıldı

## Rumıniya rəsmiləri Rusiyanın Bakı-Tiflis-Ceyhan boru kəmərinə qarşı təxribat törətdiyini bildirirlər

**Rumıniya rəsmiləri Bakı-Tiflis-Ceyhan boru kəməri ilə bağlı şok iddia ilə çıxış edib. Rəsmilər Rusiyanın Bakı-Tiflis-Ceyhan boru kəmərinə qarşı təxribat törətdiyini bildirirlər. Onlar Rusiyanın Türkiyəyə çatdırılan və ardından tankerlə Avropaya daşınan Azərbaycan neftini çirkləndirmək üçün "hibrid əməliyyat" keçirməsindən şübhələnirlər.**

Rəsmi mənbələr G4Media-ya bildiriblər ki, Rumıniya Rusiyanın hibrid müharibə əməliyyatı vasitəsilə OMV Petrom-un Petrobazi neft emalı zavodu üçün Rumıniyaya göndərilən böyük miqdarda Azərbaycan neftini qəsdən çirkləndirməsi ssenarisini nəzərdən keçirir. Məlumata görə, Rusiyanın Bakı-Tiflis-Ceyhan boru kəməri ilə nəql edilən neftə böyük miqdarda qatılaşdırılmış xlor qarışdırdığından şübhələnilir ki, bu da neft emalı zavodlarına ciddi ziyan vura və Rumıniyada yanacaq böhranına səbəb ola bilər.

Qeyd edək ki, Azərbaycan neftinin çirkləndirilməsi ilə bağlı xəbərlər ortaya çıxdıqdan sonra Rusiya mətbuatı neftin çirkləndirilməsinin arxasında ABŞ kəşfiyyatının ola biləcəyini iddia etmişdi. Onların iddiasına görə, ABŞ bununla həm son vaxtlar münasibətlərində soyuqluq yaranan Britaniyaya, həm də Azərbaycana mesajlar verir. Ancaq Rumıniya rəsmilərinin son açıqlamaları əslində Azərbaycan neftinə qaşı təxribatın arxasında Rusiyanın özünün dayandığını göstərir.

Xatırladaq ki, 1768 kilometrlik Bakı-Tiflis-Ceyhan Bakı yaxınlığındakı Səngəçal terminalından Gürcüstan ərazisindən keçərək Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan terminalına nəql edir. Boru kəmərinin 443 km-lik hissəsi Azərbaycan, 249 km-lik hissəsi Gürcüstan, 1076 km-lik hissəsi isə Türkiyə ərazisindən keçir.

Sovet İttifaqı dövründə neft və təbii qaz ixracı əsasən Rusiya vasitəsilə həyata keçirilirdi. 1990-cı illərin əvvəllərində BTC boru kəməri Azərbaycanın enerji resurslarının Rusiyadan müstəqil şəkildə qlobal bazarlara çıxışı üçün alternativ marşrut kimi meydana çıxıb.

Yaxın vaxtlarda Qazaxıstanın Kaşaqan neftinin də sözügedən boru kəməri ilə nəqlinə başlanacaq. Qazaxıstanın dövlət neft və təbii qaz şirkəti "KazMunayQaz"ın 27 yanvar 2025-ci il tarixində yaydığı açıqlamaya görə, Qazaxıstanın "Taraz" tankeri ilə 25 yanvar 2025-ci ildə Aktau limanından yola düşən təxminən 6 min ton Kaşaqan neftinin ilk partiyası Bakı Limanına çatıb. Neftin buradan Bakı-Tiflis-Ceyhan boru kəməri ilə Aralıq dənizinə çatdırılması planlaşdırılır.

Qazaxıstan və Azərbaycan arasında atılan bu addım Transxəzər beynəlxalq nəqliyyat marşrutunun daha da inkişaf etdirilməsi üçün nəzərdə tutulub.

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydin Hüseynov** "Yeni Müsavat"a açıqlamasında bütün cəhdlərə baxmayaraq, Azərbaycanın öz dayanıqlığını qoruyub saxlayacağına əmin olduğunu söylədi: "Məlumdur ki, Azərbaycanın böyük enerji resursları mövcuddur, həm neft-qaz, eləcə də yaxın gələcəkdə bərpa olunacaq alternativ enerji ixraatçısına çevriləcək. Hazırda Azərbaycan NATO-nun üzvü olan 10 ölkəyə mavi yanacaq ixrac edir. Eləcə də bu coğrafiya getdikcə daha da genişlənir. Yaxınlarda Suriyaya qaz ixrac etdik. Digər tərəfdən onu da qeyd etməliyik ki, Bakı-Tiflis-Ceyhan əsas ixrac boru kəməri Əsrin Müqaviləsi kimi dəyərləndirilir. Bu, dünya iqtisadiyyatına yeni bir töhfə verdi. Hazırda Azərbaycan Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli bir rol oynayır. Qeyd etdiyimiz kimi, Azərbaycan daim öz ticarət tərəfdaşları ilə təzyiq və yaxud da siyasi dildə danışmır. Etibarlı bir tərəfdaş imici formalaşdırmışıq. Azərbaycan bu etimadı qazanıb. Ona görə də ölkəmizlə enerji sektoru və digər sahələr üzrə əməkdaşlığa mühüm əhəmiyyət verilir. Bununla belə, əvvəldə Bakı-Tiflis-Ceyhan qaz boru kəmərinin inşa olunmasına maneələr yaratmağa cəhdlər var idi. Amma bütün bunlara baxmayaraq, bu layihə öz təsdiqini tapdı. Hazırda Azərbaycanın yeni perspektivləri mövcuddur. TANAP, TAP layihələri, Cənub Qaz Dəhlizi, eləcə də Orta Dəhliz, bütün bunlar üzərində Azərbaycan çox əhəmiyyətli rol oynayır. Bu isə Azərbaycanın uğurlarını istəməyən qüvvələr tərəfindən daim qısqanclıqla qarşılanır. Son günlərdə biz SOCOR-ın Ukraynada ixrac etdiyi qaz kəmərlərinin vurulduğunu görürük. Eləcə də digər təxribatların olacağı da istisna deyil. Bütün bunlara baxmayaraq, Azərbaycanın həyata keçirdiyi enerji siyasəti ilə həm etibarlılıq, həm də təhlükəsizlik baxımından öz dayanıqlığını qoruyub saxlayacaq".

**İqtisadçı-ekspert Günay Hüseynovanın** fikrincə, bu məsələ həm enerji təhlükəsizliyi baxımından, həm də geosiyasi-iqtisadi baxımdan maraqların toqquşması deməkdir: "Son illər məlumdur ki, iqtisadi-ticari müharibələrin sayı artmaqdadır. Təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycan müxtəlif zamanlarda bir sıra ölkələrin, xüsusilə də region ölkələrinin iqtisadi hədəfinə çevrilib.

Bu məsələ ilə də bağlı təxribat iqtisadi hədəfə çevrilib. Əgər iddia öz əksini taparsa, ölkəmizin ixrac gəlirlərində azalma gözlənilir. Bildiyimiz kimi, Azərbaycan Avropanın təhlükəsiz enerji ilə təchizatında mühüm rola malikdir. Bu fakt təsdiqini taparsa, görülən işlərə ciddi zərbə kimi qiymətləndiriləcək. Həmçinin digər alternativ bazarlara yönəlmə də gözlənilə bilər. Sabotajın motivi və geo-iqtisadi təsiri ilk növbədə Avropanın enerji təhlükəsizliyinə qarşı planlı təhdid və Azərbaycanın nüfuzunu azaltmaqdır. Çirklənmə nəticəsində əlavə xərclər çıxartmaq və ən əsası vaxt itkisi yaratmaqdır. Bakı-Tiflis-Ceyhan boru kəmərinin destablizasiyası nəticəsində Gürcüstan, Türkiyə, Azərbaycanın iqtisadi mövqeyinə təsir etməkdən ibarətdir.

Bakı-Tiflis-Ceyhan boru kəməri Azərbaycanın əsas neft ixrac marşrutu hesab olunur. Məhz burdan yola çıxaraq təxribatın hazırlanması da böyük iqtisadi zərbənin vurulması kimi qiymətləndirilir. Məlumdur ki, təxribat ölkə iqtisadiyyatına zərbə vurmaqla yanaşı, ölkənin beynəlxalq imicinə də zərbə vurur. Son günlərdə xüsusilə məlumdur ki, ölkə başçısı tərəfindən mühüm görüşlər keçirilir, ölkənin iqtisadi potensialının artırılması yönündə işlər aparılır. Belə bir təxribat halında investorların maraqlarının azalması, neft qiymətlərində volatililik, logistika və nəqliyyat xərclərinin artırılması, geosiyasi arenada inamın azalması, neft gəlirlərinin azalması və bunun nəticəsində inflyasiyanın sürətinin artması, həmçinin devalvasiya olması planın başlanğıc mərhələsidir.

Ən sonda onu qeyd edim ki, bütün bunlar yekunda Azərbaycan iqtisadiyyatı üçün real təhlükə yaratmır. Əgər bu fakt ortaya çıxarsa, beynəlxalq prinsiplərə uyğun olaraq, Azərbaycan qanun qarşısında iddia qaldırıb maraqlarını qoruyacaq".

❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"




# Azərbaycanı bu bloka qoşmaq niyyəti

## **“Wall Street Journal”:** “İbrahim razılaşmaları, ABŞ və İsraillə iqtisadi inteqrasiya olunmuş güclü bir blok...”

**ABŞ-nin “Uoll Strit Jurnal” (“Wall Street Journal”) qəzetində “Azərbaycanı və başqa ölkələri İbrahim sazişlərinə cəlb etməyin vaxtıdır” başlıqlı yazı dərc olunub. Məqalənin iki müəllifi var: Vaşinqtonda yerləşən Yorktaun İnstitutunun prezidenti Set Kropsi və institutun nəzdindəki “Turan” Araşdırmalar Mərkəzinin sədri Cozef Epşteyn.**

2020-2021-ci illərdə İsraillə dörd ərəb dövləti (Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn, Mərakeş, Sudan) arasında münasibətlərin normallaşdırılmasına dair razılaşmalar əldə olunub. Bu razılaşmalar İbrahim peyğəmbərin şərəfinə İbrahim sazişləri adı alıb.

Novator.az-ın məlumatına görə, “Azərbaycanı və başqa ölkələri İbrahim sazişlərinə cəlb etməyin vaxtıdır” yazısında qeyd olunur ki, ABŞ Prezidenti Donald Trampın avqustun 8-i Azərbaycan və Ermənistan arasında sülh sənədlərinin imzalanma mərasiminə ev sahibliyi etməsini İsrailin rəsmi dairələri də məmnuniyyətlə qarşılayıb: “Bu təşəbbüs İsrailin ən yaxın müsəlman tərəfdaşlarından olan Azərbaycanın ABŞ-nin dəstəyi ilə həyata keçirdiyi layihə idi. Üçtərəfli əməkdaşlıq hər iki ölkə üçün uzunmüddətli strateji hədəf olub. Prezident İlham Əliyev ATƏT-in Minsk Qrupunun Ermənistan-Azərbaycan münaqişəsində vasitəçiliyini uğursuz sayaraq ABŞ ilə birbaşa danışıqlara üstünlük verib, İsrail də bu xətti dəstəkləyib. İndi Donald Trampın imkanları daha genişdir: o, İbrahim razılaşmalarını Azərbaycana, habelə Qazaxıstan və Özbəkistan kimi Mərkəzi Asiya ölkələrinə şamil etməklə Yaxın Şərq və Avrasiya düzənini yenidən qura bilər. Belə strateji genişlənmə rəqiblərin qarşısını almağa, təchizat zəncirlərini şaxələndirməyə, ABŞ və İsraillə sıx əməkdaşlıq edən, əksəriyyəti müsəlman olan dövlətlərdən ibarət blok formalaşdırmağa imkan verər. Bu həm də İsrailin beynəlxalq aləmdəki imicinə qarşı aparılan kampaniyalara cavab olar.

Artıq bu ölkələrin əksəriyyəti İsraillə yaxın münasibətlər saxlayır. Azərbaycan İsrailin ən yaxın müsəlman müttəfiqi sayılır: İsrail neftinin 40 faizə qədəri Azərbaycandan gəlir, əvəzində Bakı müasir silah sistemləri alır. Bu silahlar Azərbaycanın 2020-ci ildən bəri hərbi əməliyyatlarda qələbə qazanmasında mühüm rol oynayıb. Qazaxıstan da İsrailin əsas neft təchizatçılarındandır, Özbəkistanla da ticarət əlaqələri genişdir".

Məqalə müəllifləri yazırlar ki, Mərkəzi Asiya və Cənubi Qafqazdakı siyasi meyillər ABŞ-yə İbrahim razılaşmalarını genişləndirməkdə yeni imkanlar yaradır: “Ukraynada ilişib qalan Rusiya yaxın qonşulara təsirini itirib. Qazaxıstan, Ermənistan və Azərbaycan daha çox müstəqillik nümayiş etdirir, Türkiyə, Avropa İttifaqı, Çin, Hindistan və ABŞ kimi güclərlə əməkdaşlığı artırmağa çalışır.

Mərkəzi Asiya ABŞ-nin Çin və digər rəqiblərlə güc rəqabətində mühüm əhəmiyyət daşıyır. Region milli təhlükəsizlik və texnoloji təchizat zəncirləri üçün vacib olan strateji minerallarla zəngindir. Qazaxıstan nadir torpaq elementləri və strateji mineralların ən iri ehtiyatlarına malikdir. Bunlardan ağıllı silahlardan tutmuş elektrik nəqliyyat vasitələrinə, yarımkeçiricilərə qədər bir çox texnologiyada istifadə olunur. Özbəkistan isə son illər mis, litium və nadir torpaq elementləri istehsalını artırmaq üçün 2,6 milyard dollarlıq yeni sərmayə proqramı elan edib. ABŞ hazırda nadir torpaq elementlərinin 70 faizini Çindən alır, bu isə strateji asılılıq deməkdir. Mərkəzi Asiya ehtiyatları bu asılılığı aradan qaldıra bilər".

Məqalədə vurğulanır ki, coğrafiya da üstünlük verir: “Azərbaycan və Mərkəzi Asiya Orta dəhlizin mərkəzində yerləşir. Bu ticarət marşrutu Şərqi Asiyanı Avropa ilə birləşdirir, həm Rusiyadan, həm də İrandan yan keçir. Dəhlizin dost ölkələrdən keçməsi iqtisadi dayanıqlığı və geosiyasi sabitliyi möhkəmləndirər.

İbrahim razılaşmaları təkcə diplomatik deyil, həm də iqtisadi platformaya çevrilməlidir. Dini dözümlülük və ortaq rifah prinsiplərinə sadiq ölkələri bir araya gətirən genişlənmiş blok terrorizmə qarşı mübarizə, təhsil proqramları üzrə mübadilə, mədəni əlaqələr, ticarət və infrastruktur layihələrində əməkdaşlıq edə bilər".

Müəlliflər hesab edirlər ki, Azərbaycan İbrahim razılaşmalarının genişlənməsinin təbii dayağıdır: “Ölkə həm coğrafi baxımdan Qafqazla Mərkəzi Asiya arasında körpüdür, həm də illərdir İsraillə müsəlman dünyası arasında təmaslara vasitəçilik edir. Bakı Türkiyə ilə İsrail arasında gərginliklərin azaldılmasına yardım edib. İsraillə Azərbaycanın İran təhlükəsi mövzusunda əməkdaşlığı da bəllidir.

ABŞ və İsrailin İran əleyhinə birgə əməliyyatları bu yeni sazişi mümkün edib. Heydən düşmüş Tehran əvvəllər “qırmızı xətt” saydığı Zəngəzur dəhlizinə daha mane ola bilmir. Rusiyanın zəifləməsi isə Vaşinqtonun Ermənistan üzərində Moskvanın təsirini aradan qaldırmasına imkan verib. ABŞ-nin dəhlizi və tranziti təmin etməsi, iqtisadi maraqların sülhü möhkəmləndirməsi fonunda Ermənistan artıq ölkəsindəki iki rus bazasına ehtiyac duymur.

İranın geri çəkilməsi və Rusiyanın zəifləməsi həm Azərbaycan-Ermənistan sülhünü, həm də bölgədə yeni geosiyasi nizam qurulmasını mümkün edib. İbrahim razılaşmaları bu düzənin əsas dayağına çevrilə bilər: ABŞ və İsraillə iqtisadi inteqrasiya olunmuş, daxildə tolerant, xaricdə möhkəm dayanan güclü bir blok".

❑ “Yenì Müsavat”

# Azərbaycanın Xəzərdə döyüş atışlı təlimləri



**Cari ilin hazırlıq planına əsasən, Hərbi Dəniz Qüvvələrində (HDQ) “Dəniz enerji infrastrukturunun mühafizəsi və müdafiəsi” mövzusunda döyüş atışlı taktiki təlim keçirilib.**

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov təlimin Komanda İdarəetmə Məntəqəsində olub, burada mərhələlər üzrə yerinə yetirilən tapşırıqlar haqqında komandir heyətinin məruzələrini dinləyib.

Bildirilib ki, HDQ-nin döyüş, döyüş təminatı və təminat gəmilərinin, eləcə də Dəniz xüsusi təyinatlı və Dəniz piyada bölmələrinin cəlb edilməsi ilə keçirilən təlimin başlıca məqsədi komandir heyətinin ekstremal vəziyyətlərdə operativ qərar qəbuletmə və qüvvələrin tətbiqi üzrə praktiki vərdişlərinin təkmilləşdirilməsidir.

Plana əsasən, təlimə cəlb olunan qüvvə və vasitələr Xəzər dənizinin Azərbaycana məxsus sektorunda enerji infrastrukturlarının mühafizəsi və müdafiəsi üzrə fəaliyyətləri icra ediblər. Həmçinin gündüz və gecə şəraitində, sahildə və adalarda şərti düşmənin müvəqqəti baza məntəqələrinin aşkar edilməsi və xüsusi əməliyyatlarla terror qruplaşmalarının məhv edilməsi üzrə taktiki elementlər uğurla yerinə yetirilib.

Təlim çərçivəsində axtarış-xilasetmə tədbirləri və qəzalı gəminin təxliyəsi üzrə fəaliyyətlərin icrası zamanı da yüksək peşəkarlıq nümayiş etdirilib. Döyüş atışlı taktiki təlimdə əsas diqqət mürəkkəb şəraitdə gəmilərin idarə olunmasına, dəniz qüvvə və vasitələri arasında qarşılıqlı əlaqənin təşkilinə, uzlaşmanın və birgə fəaliyyətlərin təkmilləşdirilməsinə yönəldilib.

Təlimin gedişatını izləyən müdafiə naziri şəxsi heyətin peşəkarlığını, qarşıya qoyulmuş tapşırıqların icrasını müsbət qiymətləndirib və aidiyyəti üzrə müvafiq tapşırıqlar verib.

# Hər ölkəyə “burnunu soxmaq adəti”

## İranın mühafizəkar hakimiyyəti region ölkələrinin daxili işlərinə qarışmaq xislətindən əl çəkmir, amma...



**İranın mühafizəkar hakimiyyətinin 8 avqustda Vaşinqtonda imzalanan ABŞ-Azərbaycan-Ermənistan razılaşmalarına, xüsusən də Zəngəzur dəhlizinin açılması ilə bağlı razılaşamaya qarşı mövqeyi Ermənistana təzyiq etmək formasında davam edir. Baş rolda isə yenə də İranın ali dini lideri Əli Xameneinin baş müşaviri Əli Əkbər Vilayətidir. Vilayəti Tehranda Ermənistan xarici işlər nazirinin müavini Vahan Kostanyanla görüşündə 8 avqust Vaşinqton razılaşmasını nəzərdə tutaraq “İran öz təhlükəsizliyinə qarşı heç bir addıma dözməyəcək” fikrini səsləndirməklə İrəvana xəbərdarlıq edib. Mövzunu davam etdirən Vilayəti erməni diplomata deyib ki, “regionun taleyini müstəsna olaraq region ölkələri həll etməlidir”.**

*Bəs Ermənistan hakimiyyəti İrandan artan bu cür təzyiqlərin qarşısında duruş gətirə biləcəkmi?*

**Politoloq Elxan Şahinoğlu** “Yeni Müsavat”a bildirdi ki, Əli Əkbər Vilayəti daha da “irəli” gedərək “Ermənistanın baş naziri Azərbaycan Prezidenti ilə Ağ Evin sahibi Donald Trampın vasitəçilyi ilə ortaq bəyanata imza atmamalı idi” fikrini də söyləyə bilərdi. Lakin bunu söyləməsə də, Ermənistanın daxili işlərinə qarışmaqda yenə də çəkinməyib: “Bir ölkəyə başqa ölkələrlə imzaladığı sənədə görə təzyiq edib o cür fikirlər səsləndirmək daxili işlərə qarışmaq deyil, bəs nədir? İran həmişə deyir ki, heç kim bizim daxili işlərə qarışmasın, daxili işlərimizə qarışanlar beynəlxalq hüququ pozur. Ancaq bu gün İran özü açıq şəkildə Ermənistanın daxili işlərinə müdaxilə edir və təzyiq göstərir. Bir dəfə həmin Vilayətinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistanın keçmiş liderləri Tehranda ortaq bəyanata imza atdılar, bir gün sonra Şuşa işğal olundu. Daha Vilayətinin ”məsləhətlərinə" qulaq asacaq halımız yoxdur. Vilayəti Cənubi Qafqaz ölkələrinin daxili işlərinə qarışarkən, bir başqa iranlı rəsmi Livana gedərək bu ölkəyə də “ağıl” qoymağa çalışıb. Livan dövləti ölkədəki qanunsuz silahlı qrupları, o cümlədən “Hizbullah” təşkilatını tərksilah etməyə qərar verib. Bu, Livanın müstəsna hüququdur. Çünki bu qruplaşma tərksilah olunmayınca, İsrail Livana istənilən an yenidən hücum edə bilər. İranın Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Laricani isə Beyrutda görüşdüyü Livan Prezidenti Cozef Aundu inandırmağa çalışıb ki, “Hizbullah” təşkilatını tərksilah etməyin. Bu, İranın Livanın daxili işlərinə qarışması deyil, bəs nədir? Livan Prezidenti Əli Laricaniyə açıq deyib ki, bizim daxili işlərə qarışmayın, ölkədə qayda-qanun yaradılmalıdır. Müharibələr, sanksiyalar İrandakı mühafizəkar dairələrə dərs olmur. İndi görək Ermənistanın da lideri İrana “bizim daxili işlərimizə qarışmayın” deyə biləcəkmi".

Politoloq vurğuladı ki, Ermənistanın İranın mühafizəkar dairələrinin təzyiqlərinə duruş gətirməkdən başqa çarəsi yoxdur: “Çünki baş nazir Nikol Paşinyan Vaşinqtonda məlum sənədləri imzalayıb. O sənədlərdən irəli gələn məsələləri Ermənistan yerinə yetirməlidir. Başqa alternativi yoxdur. Ermənistan İrana izahat işləri aparmalıdır ki, bu razılaşmalar İrana qarşı deyil. Yəqin ki, Paşinyan xarici işlər nazirinin müavinini buna görə Tehrana göndərib. Paşinyan özü də bir açıqlama verdi ki, Zəngəzur dəhlizi işə düşərsə, bundan Rusiya və İran da faydalana bilər. Bununla demək istəyir ki, prosesə mane olmayın. Məsələnin ikinci tərəfi odur ki, İranın rəsmi strukturları, o cümlədən prezident Məsud Pezeşkianla xarici işlər naziri Abbas Əraqçı Zəngəzur dəhlizinin və Vaşinqton razılaşmasının əleyhinə deyillər. Məsələnin üçüncü tərəfi odur ki, İran və Rusiya hazırda elə durumdadırlar ki, prosesə mane olacaq halları yoxdur. Rusiya Ukrayna müharibəsi bataqlığı içindədir, İran isə Qərbin sanksiyalarının, İsrailin, Qərbin basqıları altındadır. Belə bir vəziyyətdə Vilayəti Zəngəzur dəhlizinə necə mane ola bilər? Digər tərəfdən, Paşinyana qarşı elə də böyük təzyiq alətləri də İran mühafizəkar dairələrinin əlində yoxdur”.

❑ Etìbar SEYÌDAĞA,
“Yenì Müsavat”

YENİ MÜSAVAT
N 143 (8753) 15 avqust 2025

# Liftdən pul verməyən də istifadə edə bilər

## Ali Məhkəmədən mühüm qərar



**Ali Məhkəmənin Mülki kollegiyası çoxmənzilli yaşayış binalarında liftdən istifadəyə məhdudiyyətin tətbiq edilməsi qaydalarına dair vahid məhkəmə təcrübəsini müəyyən edən qərar qəbul edib.**

Məhkəmə mübahisəsi cavabdehin MMC ilə çoxmənzilli yaşayış binasının sakinləri arasında binaya xidmətlərin göstərilməsinə dair müqavilələrin bağlanması ilə əlaqədar olub.

Həmin müqavilədə MMC istifadəçilərə kommunal xidmətlər göstərməyi, habelə çoxmənzilli binanın idarə edilməsi məqsədlərinə nail olunmasına yönələn digər fəaliyyəti həyata keçirməyi öhdəsinə götürüb. Həmçinin MMC tərəfindən binadakı liftlərdən kartla istifadə sistemi tətbiq edilib.

Sakinlərdən bir neçəsi xidmət haqqını ödəməməsi səbəbilə MMC tərəfindən liftdən istifadə kartlarının deaktiv edilməsinin qadağan edilməsi barədə iddia qaldırıblar.

Ali Məhkəmənin mübahisə ilə bağlı mövqeyi ondan ibarət olub ki, liftlər bina sakinlərinin ümumi paylı mülkiyyətində olmaqla, bu hüquq mütləq deyil, bina sakinlərinin ümumi yığıncağının qərarı ilə və ya tərəflər arasında bağlanmış müqavilə ilə məhdudiyyətlərə məruz qala bilər.

Baxılan işdə tərəflər arasında bağlanmış xidmət müqaviləsində belə bir məhdudlaşdırıcı əsas mövcud deyil, eyni zamanda mübahisəli çoxmənzilli binaların idarəetmə orqanı olan sahə mülkiyyətçilərinin ümumi yığıncağının da liftdən istifadəyə məhdudiyyətin tətbiq edilməsi ilə bağlı qərarı yoxdur.

Belə olan halda cavabdeh MMC-nin iddiaçıların liftdən istifadələrinə xidmət haqqının ödənilməsinə görə məhdudiyyət (kartın deaktiv edilməsi) tətbiq etməsi onların mülkiyyət hüququna müdaxilədir və Mülki Məcəllənin 157.4-cü maddəsinə əsasən, iddiaçıların bu müdaxilədən müdafiə hüquqları vardır.



# Azərbaycanlılar bu ölkədə ev almağa axışır

## Ölkəmizdən Türkiyəyə əmlak yatırımı artır-dil, münasibətlər və iqtisadi fürsətlər əsas səbəblər kimi göstərilir

Marja xəbər verir ki, iyul ayında xaricilərə ən çox mənzil satılan şəhərlər: İstanbul (643), Antalya (642) və Mersin (175) olub.

Ölkə vətəndaşlığına görə isə ən çox mənzil satışı Rusiya vətəndaşlarına həyata keçirilib. İyulda Rusiya vətəndaşlarına - 315, İran vətəndaşlarına - 152 və Almaniya vətəndaşlarına - 135 mənzil satılıb.

2025-ci ilin iyul ayında Türkiyədə Azərbaycan vətəndaşlarına 93 mənzil satılıb. 2024-cü ilin iyul ayında Azərbaycan vətəndaşlarına 88 mənzil satılmışdı.

2025-ci ilin yanvar-iyul dövründə (7 ayda) Türkiyədə Azərbaycan vətəndaşlarına 501 mənzil satılıb. Bu say ötən ilin eyni dövründə 427 idi.

Qeyd edək ki, 2012-ci ildə Türkiyədə "qarşılıqlı prinsipi" ləğv edilib. Nəticədə MDB ölkələri və Azərbaycan da daxil olmaqla, 129 ölkənin vətəndaşına bu ölkədən əmlak almaq hüququ verilib. Türkiyədə əmlakı həm fiziki, həm də hüquqi şəxs kimi almaq olar. Xarici investorlar üçün əmlak alışında bəzi məhdudiyyətlər var. Məsələn, xaricilərin aldığı torpaq sahəsi 30 hektardan artıq olmamalıdır (2012-ci ilədək 2,5 hektar idi). Üstəlik, Rusiya və Ukrayna vətəndaşlarına Türkiyədə həmin ölkələrlə sərhəd bölgələrdə- Qara dənizin sahilləri, o cümlədən Samsun, Trabzon, Zonquldaq və başqa şəhərlərdə torpaq almaq qadağan edilib. Bundan başqa, ölkə daxilində də xaricilərin torpaq almasına qadağa olan ərazilər var. Əmlak alışı həm də Türkiyədə yaşamaq və ya uzunmüddətli viza almaq istəyən şəxslər üçün hüquqi əsas yaradır. 400 min ABŞ dolları dəyərində əmlak alan xarici vətəndaşlara Türkiyə vətəndaşlığı da verilə bilər. Bu amil də azərbaycanlı investorlar və ailələr üçün motivasiya yaradan əsas səbəblərdən biridir. Yeri gəlmişkən, Türkiyədə xaricilərin maraq göstərdiyi əsas ərazilər İstanbul, Egey və Aralıq dənizi sahilləridir.

**İqtisadçı Xalid Kərimli** mövzunu "Yeni Müsavat"a şərh edərkən bildirdi ki, Türkiyəni azərbaycanlılar üçün investisiya baxımından cəlbedici edən cəhət dil baryerinin olmaması, o cümlədən ölkələr arasında münasibətlərin yaxşı olmasıdır: "Türkiyədə azərbaycanlılara qarşı münasibət yaxşıdır. İkinci mühüm məqam budur ki, İstanbulda əmlak qiymətlərinin artmasıdır. Əmlak qiymətləri bahalaşır, bu isə investorlar üçün cəlbedici faktordur. Lirə dəyərdən düşsə də, xüsusilə turizm bölgələrində daşınmaz əmlak alqı-satqısı dollarla həyata keçirilir. Son illər qiymətlər xeyli artıb. Xüsusilə Rusiya-Ukrayna müharibəsindən sonra Türkiyəyə həm turistik, həm vəsait yerləşdirilməsi, həm də ev alqı-satqısı baxımından axın oldu. Türkiyə iqtisadiyyatında kataklizmalar olsa da, artım dinamikası müşahidə olunur".

❑ **Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**

**2025-ci ilin yanvar-iyul dövründə Türkiyədə xaricilərə mənzil satışı illik müqayisədə 12,1% azalaraq 11 min 267 ədəd olub. İyul ayında ümumi mənzil satışlarında xaricilərə satılan mənzillərin payı 1,3% təşkil edib.**

# Qarabağdakı yanğınları kimlər törədir?

## Son günlər artan yanğın hadisələrində əsas günahkar məsuliyyətsiz insanlardır- nə etməli...

**Son dövrlərdə Qarabağ və Şərqi Zəngəzurda müxtəlif ölçülü yanğınlar vaş verir.**

Milli Məclisin Laçından olan deputatı **Rövşən Muradov** modern.az-a qeyd edib ki, ilk ciddi yanğın hadisəsi iyulun 16-17-də Laçın rayonunda baş verdi. Onun sözlərinə görə, yanğın 14 hektara qədər ərazini əhatə edib.

"Həmin dövrdə bölgədə quraqlıq hökm sürürdü, dağlıq ərazilərdə səhərlər otlar şehli olduğundan, bu, qismən təhlükəni azaldırdı. Lakin bu il meşələrdə nəmlik səviyyəsi xeyli aşağı düşüb və bu da yanğın riskini artırıb.



Doğrudur, meşələr ekosistem üçün əvəzolunmazdır - torpaqları eroziyadan qoruyur, su ehtiyatlarının tükənməsinin qarşısını alır, havanı təmizləyir. Fotosintez nəticəsində oksigen istehsal edir və karbon qazını udur. Eyni zamanda maddələr dövriyyəsində və bioloji enerjinin ötürülməsində də mühüm rol oynayır. Ancaq, təəssüf ki, bəzi insanlar meşələrə qarşı məsuliyyətsiz davranır və onların qorunmasına laqeyd yanaşma sərgiləyirlər", - deyə o qeyd edib.

Deputat bildirib ki, ölkəmizdə hələ 1997-ci ildən qüvvədə olan "Meşə Məcəlləsi" bu sahəni ciddi tənzimləyir. Məcəllədə 80-ə yaxın maddə mövcuddur və 61-ci maddə yanğın təhlükəsizliyi və meşələrdə nəzarət mexanizmləri ilə bağlıdır: "Digər ölkələrdə meşələrə və park ərazilərinə daxil olan şəxslərdən yandırıcı vasitələr alınır, siqaret çəkməyə qadağalar tətbiq olunur. Təəssüf ki, bu cür tədbirlər bizdə hələ geniş şəkildə tətbiq edilmir. Meşələrimiz çirklənidirilir, icazəsiz tonqallar qalanılır.

Sovet dövründə meşəbəyilər tərəfindən müəyyən nəzarət həyata keçirilirdi. Hazırda Qarabağ bölgəsində əsas diqqət bərpa və tikinti işlərinə yönəlib. Meşə təhlükəsizliyinə nəzarət olsa da, bu proseslər daha da gücləndirilməlidir. İctimai tədbirlər və pikniklər zamanı aidiyyəti qurumlar konkret nəzarət mexanizmləri tətbiq etməlidirlər. Tonqal yandırılmasına yalnız icazə verilmiş ərazilərdə və təhlükəsizlik qaydalarına uyğun şəkildə icazə verilməlidir.

Laçında baş verən yanğında Sus kənd sakinlərinin məsuliyyətsiz davranışı nəticəsində yanğın yayılıb. Özləri söndürməyə cəhd etsələr də, külək səbəbilə yanğın nəzarətdən çıxıb. Yay aylarında yanğınların əsas səbəbi insan amilidir. Elə bu baxımdan meşələrdə yanğın təhlükəsizliyi tədbirləri mütləqdir".

R.Muradovun sözlərinə görə, bu işə birbaşa cavabdeh qurum - Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin Bərpası və Mühafizəsi Departamenti mühüm rol oynayır:

"Bu struktur və onun mühəndisləri yanğın təhlükəsizliyi rejimini meşə təsərrüfatlarında tətbiq etməli və daimi nəzarət həyata keçirməlidir. Yanğınsöndürmə texnikalarının işlək vəziyyətdə saxlanılması, su mənbələrinin mövcudluğu və yolların əlçatanlığı daima yoxlanmalıdır. İşçilər yanğınsöndürmə qaydaları üzrə mütəmadi təlimlərə cəlb olunmalıdır".

Millət vəkili onu da diqqətə çatdırıb ki, bu problem təkcə Qarabağ və ya Azərbaycanla məhdudlaşmır, belə yanğınlar qlobal miqyas alıb. Onun fikrincə, Qarabağda, xüsusilə Xocavənd, Ağdərə və Zəngilanda son aylarda çoxlu yanğın hadisələri qeydə alınıb və əksəriyyəti insan faktoru ilə əlaqəlidir.

O həmçinin söyləyib ki, Qarabağın mürəkkəb relyefi və post-münaqişə vəziyyəti kontekstində yanğınların idarə olunması üçün institusional əməkdaşlıq vacibdir: "Dövlət qurumları, yerli icra hakimiyyətləri və əhali arasında koordinasiya gücləndirilməli, əhali mütəmadi maarifləndirilməlidir. Erkən xəbərdarlıq sistemləri qurulmalı, texnoloji və qabaqlayıcı tədbirlər həyata keçirilməlidir".

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 143 (8753) 15 avqust 2025

# İcra başçılarının səlahiyyətləri onlara ötürüləcək

## Mütəllibovdan qalma icra hakimiyyətləri ləğv ediləcək

**Azərbaycanın yerli idarəetmə sistemində mühüm dəyişikliklər gözlənilir. Uzun illər bölgələrdə əsas icraedici orqanı kimi fəaliyyət göstərən icra hakimiyyətləri struktur islahatlarının astanasındadır. İslahatların məqsədi qərarların qəbulu prosesini sürətləndirmək, bürokratik əngəlləri aradan qaldırmaq və yerli icra hakimiyyətlərinin daha çevik və effektiv fəaliyyətini təmin etməkdir. Bəzi idarələrin birləşdirilməsi, digərlərinin isə müasir tələblərə uyğun şəkildə yenidən formalaşdırılması nəzərdə tutulur.**



Növbəti mərhələdə isə icra hakimiyyətlərinin ləğv edilə biləcəyi müzakirə edilir. Qeyd edək ki, artıq işğaldan azad edilən bölgələrdə Prezidentin nümayəndəlikləri sınaqdan keçirilir və onların fəaliyyəti özünü doğruldub. Ekspertlər növbəti mərhələdə icra hakimiyyətlərinin ləğvi və bütün səlahiyyətlərin nümayəndəliklərə ötürülməsi ehtimalını müzakirə edirlər.

Modern.az-a açıqlamasında **"Konstitusiya" Araşdırmalar Fondunun rəhbəri, hüquqşünas Əliməmməd Nuriyev** bildirib ki, bu il Azərbaycanda "Konstitusiya və Suverenlik ili" elan edilib. Buna görə də istisna etməzdim ki, növbəti aylarda Konstitusiya dəyişiklikləri ilə bağlı referendum ehtimalı ola bilər. "Bütün bunları nəzərə alaraq hesab edirəm ki, yaxın perspektivdə dövlət idarəetməsində daha ciddi struktur islahatları gözlənilәndir".

**Siyasi ekspert Əli Orucov** "Yeni Müsavat"a şərhində bildirdi ki, Azərbaycan hakimiyyətinin uğurlu xarici siyasəti daxili siyasəti ilə həmahəng getməlidir və möhkəmləndirilməlidir. Bunun üçün həllini gözləyən vacib problemlər həll edilməli, lazım gələrsə, qətiyyətli addımlar atılmalıdır: "Ölkədə islahatlar aparılsa da, bunun tempinin aşağı olması gözləntiləri doğrultmur və həyata keçirilən dəyişikliklər də istənilən effekti vermir. İdarəetmənin təkmilləşdirilməsi, müasir dövrün tələb və çağırışlarına uyğun yeniləşdirilməsi, mobil və səmərəli hala gətirilməsi qarşıda duran ən vacib məsələlərdir. Azərbaycanda dövlət aparatı çox şişirdilib və bir çox hallarda bir-birini təkrarlayır. Azərbaycanda təkcə yerli deyil, mərkəzi hakimiyyət orqanlarının da sayını azaltmaq işin faydasına olar. Nazirlər Kabinetinin tərkibi həddindən artıq genişdir. Fikrimcə, baş nazir postu ləğv olunmalı, Nazirlər Kabinetinə Birinci vitse-prezident rəhbərlik etməlidir. Nə qardaş Türkiyədə, nə Birləşmiş Ştatlarda baş nazir postu yoxdur. Nəzərə alsaq ki, Azərbaycan bir çox sahələrdə Türkiyə modelinə keçid edir, bu məsələdə də həmin təcrübədən yararlanmaq faydalı olardı. Dəfələrlə deyildiyi kimi, yerli icra hakimiyyəti orqanları Ayaz Mütəllibovun dönəmindən qalıb və köhnələrək müasirliklə ayaqlaşa bilmir. Hətta inkişafa, təşəbbüskarlığa mane olur. Eyni zamanda dövlətin büdcəsinə artıq yükdür. Onun əvəzinə yerli idarəetmə orqanlarının səlahiyyətlərini artırmaq, regionların təsərrüfat idarəçiliyini bələdiyyələrə vermək daha düzgün olar".

Ekspert hesab edir ki, yerli icra hakimiyyəti orqanlarını 14 iqtisadi rayonlar üzrə birləşdirib Prezidentin həmin rayonlar üzrə nümayəndəliyi formalaşdırmaq olar: "Belə təcrübə artıq işğaldan azad olunmuş rayonlar üzrə var. Onlar Prezidentin yerlərdə nümayəndələri kimi birbaşa Prezidentə tabedirlər. Cəmiyyətin özü də artıq icra hakimiyyətləri başçılarına əlçatmaz ünvan kimi baxır. Bu da təsadüfi deyil. Başçılar özlərini əksər hallarda rayonların mütləq-hakimi kimi aparır, digər qurumlara, biznes strukturlarına qanunsuz müdaxilə edir, nəticədə əhalinin narazılığına səbəb olurlar. Korrupsiya və rüşvətxorluqla bağlı qalmaqallı icra başçılarının həbsi bir daha sübut etdi ki, bəzi yerli icra hakimiyyətləri bir çox hallarda mütəşəkkil cinayətkar qrupa çevrilib. Onlar özəl maraqlarını təmin etmək üçün tabeliyindəki vəzifəli şəxsləri də qanunsuzluğa məcbur edirlər. Faktiki olaraq yerli icra hakimiyyətləri heç nəyi həll etmir, heç nəyə məsuliyyət daşımır, amma geniş var-dövlət qazanırlar. Ancaq, təəssüf ki, tətbiq edilən bu qədər cəza tədbirləri, həbslər də bu cür neqativ halların qarşısını tam ala bilmir. Təəccüblüsü odur ki, həmin məmurlar qısa müddətdən sonra həbsdən azad olunurlar. Deməli, onların arxasında hansısa gözəgörünməz güclü əl dayanır və onları cəzadan xilas edə bilir".

Ə.Orucov dedi ki, son dövrlər bir sıra mərkəzi icra hakimiyyəti orqanlarının şöbə və idarələrini ləğv edilərək region üzrə birləşdirilməsi onu deməyə əsas verir ki, yerli icra hakimiyyətlərinin ləğv edilməsi istiqamətində ləng proses gedir: "Prezident İlham Əliyevin sərəncamı ilə ölkədə 14 iqtisadi rayonun yaradılması ölkənin yeni idarəetmə modelinə keçidini də artıq uzun müddətdir aktuallaşdırıb. Azərbaycanda dövlət idarəçiliyinin daha səmərəli qurulması üçün mövcud icra hakimiyyətlərinin ləğvi gec-tez baş verəcək. Hazırda işğaldan azad edilmiş rayonlarda və Naxçıvanda Prezidentin xüsusi nümayəndəliyi institutu fəaliyyət göstərir. Dövlət başçısının sərəncamı ilə yaradılmış yeni institut faktiki olaraq idarəetmə mexanizmini həyata keçirir. Hazırkı idarəetmə modelinin dəyişdirilməsi və icra hakimiyyətlərinin xüsusi nümayəndəliklərlə əvəz edilməsi həm idarətmənin sadələşməsinə, həm də səmərəliliyinin artmasına səbəb olar. Əslində sovet dövrünün rayon partiya komitələrinin başqa adla təkrarına bənzəyən rayon icra hakimiyyəti institutu ləğv edilməli, bunun əvəzində 14 iqtisadi rayonda Prezidentin xüsusi nümayəndəliyi institutu tətbiq edilsə, daha səmərəli olar. İdarəetmə modellərində yeniliklərin tətbiqinin Konstitusiyada təsbit olunması üçün konstitusiya dəyişikliyi edilməlidir".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Bakıda qadınlar da avtobus sürəcək

## Mehriban Zeynalova: "Kim xoşuna gəlmirsə, minməsin"

**İctimai nəqliyyatda qadın sürücülərin iştirakını artırmaq məqsədilə yeni təlim proqramına başlanılıb. Bu barədə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) məlumat yayıb. Bildirilib ki, proqram çərçivəsində namizədlər avtobus sürücüsü kimi peşəkar fəaliyyətə başlamaq üçün nəzəri və praktiki cəhətdən hazırlıq keçirlər.**



Təlimlərin sonunda iştirakçılar xüsusi hazırlanmış marşrutlar üzrə sərbəst idarəetmə sınaqlarına cəlb olunurlar. Bu mərhələdə onların həm nəzəri bilikləri, həm də praktiki bacarıqları kompleks şəkildə qiymətləndirilir.

Dünyanın bütün sivil ölkələrinin sərnişindaşınmasında qadın sürücülər var. Sovet dövründə Azərbaycanda da qadın maşinistlər, avtobus, tramvay sürücüləri olub. Hazırda Bakıda bir neçə qadın taksi sürücüsü, metroda maşinist olsa da, avtobus sürücüsü yoxdur. Bu günlərdə də "Bakubus" MMC-nin qadınların sürücülüyə cəlb olunması ilə bağlı elanı maraq doğurub, lakin ümumilikdə cəmiyyət arasında birmənalı qarşılanmayıb.

Qadınların pis sürücü olduğuna dair əsassız və birmənalı qarşılanmayan baxış var. Qadın sürücü qəzaya düşəndə xəbərlərdə "Qadın sürücü qəza keçirdi" deyilir. Amma kişi sürücü qəza törədərkən onun kişi olduğunu bildirməyə ehtiyac yoxdur. Elmi araşdırmalara görə, qadınların sürücülükdə kişilərdən daha zəif olduğu hissələr var, ancaq kişilərdən daha güclü olduqları yerlər də var. İki cinsin maşın sürməsinin səbəbi təkamül biologiyası ilə izah olunur.

*Qadınların avtobus sürməsi ictimai nəqliyyatda hansı müsbət dəyişikliyə səbəb ola bilər?*

**Nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı** mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb. Ekspert hesab edir ki, bu, cəmiyyətdə "sensasiya" kimi təqdim olunacaq bir yenilik deyil: "Hesab etmirəm ki, bu, fantastik bir dəyişiklik gətirəcək. Burada sürücülərin qadın və kişiyə bölünməsinin tərəfdarı deyiləm. Onlara xüsusi təlim keçib, sonra xəttə buraxacaqlar ki, artıq müstəqil şəkildə avtobusu idarə edə bilsinlər. Bildiyim qədər, ötən ildən bu məsələ müzakirə olunur, müraciətlər də var, hətta kateqoriyası uyğun olmayan sürücülər də müraciət ediblər. Bilirsiniz ki, avtobus sürmək üçün D kateqoriyası lazımdır. Amma indi həvəsləri var, müraciət ediblər. Aidiyyəti qurumlar, eləcə də "BakuBus" onları təlimlərə yönləndirir və onlar yenidən imtahan verib sürücülük vəsiqəsini qaydaya salmalıdırlar ki, bəzi təlimlərdən sonra xəttə çıxa bilsinlər.

90-cı illərdə Bakıda trolleybus sürən qadınları görmüşəm, avtobus sürən qadınlar da olub. Bu gün təyyarə sürən, qatar sürən, taksi sürən qadın, kran sürən qadın var. İndi avtobus sürən qadın da olanda nə olacaq ki? Bəziləri buna "mız" qoyur. Mən burada bir problem görmürəm. Sadəcə, normal istirahət və iş rejimi olsa, hər şey qaydasında olacaq. Bir də qadınlarla bağlı incə məqamlar var, şirkətlər onu nəzərə alsa, hər hansı bir problem yaşanmayacaq".

Ekspert əlavə edib ki, növbəli iş rejiminə çox ciddi nəzarət olacaq, avtobus sürücüləri 8 saat iş rejimində çalışacaqlar: "Belə olan halda qadınların da bu sahədə iştirakı maraqlı olar. İndiki avtobuslar o qədər çətin funksiyaya malik deyil. İstər idarəetmə mexanizminə, istər digər detallara baxsaq, çox rahatdır. Əgər cəmiyyətdə gender bərabərliyindən danışırıqsa, bu sahədə də qadın olmalıdır. Bu gün avtobuslar xüsusi kamera altındadır, konkret marşrut üzrə hərəkət edir, xüsusən avtobus üçün zolaqlar var. Belə məqamları nəzərə alanda əminəm ki, ciddi problem yaranmayacaq. Qeyd etdiyim kimi, nə də müsbət fantastik bir dəyişiklik gözləmirəm. Yeni qadınlar bu sahəyə gələndən sonra avtobuslarda hər şey ideal olacaq deyə bir şey yoxdur".

**"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova** qeyd edib ki, qadın sürücülərə müsbət yanaşır: "Əlbəttə ki, qadın sürücülər arasında yaxşı sürücü olmayanlar, nəqliyyat vasitəsindən görüntü üçün istifadə edənlər var. Amma əksəriyyəti məsuliyyətlidir. Şəxsən mən hər gün kişilərin məsuliyyətsiz, qarşı tərəfə hörmət qoymadan sürücülük etdiyini görmüşəm. Sürücülük həm də digərlərinə hörmət nümayiş etdirməkdir, sürücülük adi məsələ deyil. Yəni sürücülük həm nəqliyyatda, həm də nəqliyyatdankənar insanlara hörmətlə yanaşmaqdır.

Hesab edirəm ki, qadınlar daha məsuliyyətli avtobus sürücüsü olacaqlar. Necə olur ki, qadınlar 5 uşaq, 10 uşaq böyüdə bilirlər və onların həyatı ilə bağlı kifayət qədər mübarizə aparır, özlərini fəda edə bilirlər, amma avtobusu idarə edə bilməyəcəklər? Kimin xoşuna gəlməyəcəksə, minməsin. Hesab edirəm ki, bu məsələdə ajiotaj yaratmağa ehtiyac yoxdur. Çünki kifayət qədər qadın məsuliyyətli sürücüdür".

Mehriban Zeynalova həmçinin psixoloji testlərin vacibliyinə diqqət çəkib: "Daha bir məsələ, düşünürəm ki, qadın və ya kişi fərq etmir, ictimai nəqliyyata çıxan istənilən sürücü xəttə çıxmazdan əvvəl onun psixoloji vəziyyəti yoxlanılmalıdır. Bildiyim qədər metro işçiləri üçün bu, tətbiq edilir və bu, çox yaxşıdır. Mən bunu alqışlayıram. Yəqin ki, yaxın vaxtlarda bu, avtobus sürücüləri üçün də tətbiq ediləcək".

**❑ Xalidə GƏRAY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 143 (8753) 15 avqust 2025



## ABŞ-nin Bakıdakı sabiq səfirləri Trampa müraciət etdilər

**ABŞ-nin Azərbaycandakı sabiq səfirləri Riçard Morningstar və Robert Sekuta administrasiyaya müraciət edərək, 8 avqustda Vaşinqtonda keçirilən tarixi sammitdə qəbul edilmiş qərarların icrasını uzatmamağı və Cənubi Qafqazda daha fəal işləməyi tövsiyə ediblər.**

Səfirlər bildirib ki, Prezident Donald Trampın vasitəçiliyi ilə imzalanmış Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş Naziri Nikol Paşinyan arasında sülh deklarasiyası regionda sülh, sabitlik və tərəqqi üçün mühüm addımdır. Onlar vurğulayıblar ki, ABŞ-nin iştirakı sənədin hazırlanmasında və gələcəkdə ratifikasiyası və icrasında həlledici rol oynaya bilər.

Morningstar və Sekuta qeyd ediblər ki, Vaşinqton sammiti Rusiyaya, İrana və digər regional oyunçulara “lazımi siqnalları” verib. ABŞ regionun iqtisadi inkişafına dəstək göstərərək, tranzit koridorunu nəzarətdə saxlaya və üçüncü tərəflərin zərərli təsirinə qarşı mübarizə apara bilər.

Sabiq diplomatlar xatırladıblar ki, Vaşinqton deklarasiyası yekun sülh müqaviləsi deyil, amma tərəflər yekun razılaşmanın imzalanması üçün zəruri addımlar atmağa söz veriblər. Deklarasiyanın uğurla icrası regionda dayanıqlı sülhün yaranmasına töhfə verə bilər.

Səfirlər vurğulayıblar ki, ABŞ Administrasiyası Dövlət Departamenti, Ticarət Nazirliyi, İnkişaf üzrə Korporasiya və digər strukturlar vasitəsilə Ermənistan və Azərbaycan hökumətləri, onların şirkətləri və amerikalı investorlarla sıx əməkdaşlıq etməli, tranzit layihələrin həyata keçirilməsini təmin etməlidir. Eyni zamanda ABŞ Türkiyə, Gürcüstan və Mərkəzi Asiya ölkələri ilə əməkdaşlıq edərək yeni nəqliyyat marşrutlarının potensialını tam reallaşdırmalıdır.

Morningstar və Sekuta hesab edirlər ki, ABŞ həmçinin ermənilər və azərbaycanlılarla cəmiyyətlərarası əlaqələri gücləndirməyə, uzunmüddətli və dayanıqlı sülh üçün şəxsi və ictimai dialoqu təşviq etməyə dəstək verməlidir.

# Referendum və seçkilər bu tarixdə keçirilə bilər

**Hesab edilir ki, Ermənistan öhdəliklərini nə qədər tez yerinə yetirsə, sülh müqaviləsinin imzalanması bir o qədər yaxın olacaq.**

Avqustun 8-də Azərbaycan-Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında 17 bəndlik sazişin icra edilməsi üçün əsas şərt Ermənistan Konstitusiyasının dəyişdirilməsidir.

Hazırda Ermənistandakı radikal mövqedə olan qüvvələr isə əsas etibarilə ölkədə konstitusiya dəyişikliyinə əngəl olmağa can atırlar, bunun üçün çağırışlar edirlər. Demokratik Alternativ Partiyasının sədri Suren Surenyants bildirir ki, Ermənistanın baş naziri Nikol Paşinyan, çox güman ki, gələn ilin iyununda keçirilməsi nəzərdə tutulan konstitusiya üzrə referendum və parlament seçkilərini birləşdirməli olacaq. Onun sözlərinə görə, hakimiyyət referendum üçün lazım olan dəstəyi tapa bilmir. Referendumun seçkilərlə birləşdirilməsi baş nazir üçün “həyat kəmərinə” çevrilə bilər. Paşinyan isə Vaşinqtonda imzalanmış sənəddən parlament seçkiləri öncəsi daxili siyasi kozır kimi istifadə etmək niyyətindədir. Baş nazir özünü sülh gündəminin daşıyıcısı kimi göstərməyə çalışacaq, eyni zamanda mövcud proseslərlə razılaşmayanların hamısını nüfuzdan salacaq və onlara hücum edəcək. Paşinyan rəqiblərini sülh əleyhdarları kimi təqdim edəcək.

Ermənistan Baş naziri Nikol Paşinyan əvvəllər də bəyan edib ki, iki müddətdən birində referendum keçirmək mümkündür: 2026-cı ilin iyulun 7-də parlament seçkiləri ilə eyni vaxtda, bu, baş tutmadıqda isə 2027-ci ildə.

Hesab edilir ki, Nikol Paşinyan heç bir radikal qrupun və separatçı qüvvənin diktəsinə boyun əyməməlidir. Ermənistan öhdəliklərini nə qədər tez yerinə yetirsə, sülh müqaviləsinin imzalanma tarixi də bir o qədər yaxın olacaq. Radikal qüvvələrin sosial bazasının zəifliyi fonunda onlar prosesə müdaxilə etməkdə çətinlik çəkir. Kənar qüvvələrin isə dəstəyi hansısa nəticə vermir.

**AMİP Ali Məclisinin sədri, politoloq Rəşad Bayramov** “Yeni Müsavat”a bildirdi ki, sülh sazişinin bağlanması və ümumiyyətlə, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində çox böyük yol qət edilib: “Nəhayətdə 17 maddədən ibarət sülh sazişi razılşdırılıb və 8 avqust Vaşinqton görüşündə də ABŞ Prezidenti Trampın şahidliyi ilə paraflanıb. Məlumdur ki, sülh sazişinin imzalanması üçün Azərbaycanın əvvəldən iki şərti var idi. Bunlardan biri ATƏT Minsk Qrupundan imtina, digəri isə özündə Azərbaycana qarşı ərazi iddialarını ehtiva edən Ermənistan Konstitusiyasına dəyişikliklərin edilməsi idi. Bu tələblər tamamilə əsaslandırılmış tələblər olduğu üçün Ermənistan tərəfi Konstitusiya dəyişikliyinə getməyəcəyi və ya ATƏT Minsk Qrupundan imtina etməyəcəyinə dair bəyanat verə bilmirdi. Sadəcə, müxtəlif bəhanələrlə vaxtın uzadılmasına çalışırdı. Nəhayətdə 8 avqustda bu şərtlərdən biri öz həllini tapdı. Azərbaycan və Ermənistan xarici işlər nazirləri ATƏT-ə Minsk Qrupunun ləğvi ilə bağlı birgə müraciət ünvanladılar. Digər vacib şərtlə bağlı isə öhdəlik götürülmüş oldu. Belə ki, Azərbaycan, ABŞ və Ermənistan liderlərinin imzaladıqları Bəyannamənin birinci maddəsində sazişin imzalanması və yekun olaraq ratifikasiyası üçün əlavə tədbirlərin görülməsinə ehtiyac olduğu xüsusi olaraq qeyd edilib. Bu maddə məhz Ermənistan konstitusiyasına dəyişikliyin zəruriliyi ilə bağlı götürülmüş öhdəlikdir və Ermənistan həmin öhdəlikdən irəli gələn addımları atmaq məcburiyyətindədir. Digər bir tərəfdən sülhün əldə olunması Ermənistanın özü üçün də olduqca vacibdir və rəsmi İrəvan da başa düşür ki, Azərbaycana qarşı ərazi iddialarının qaldığı müddətdə hər hansı real sülhdən danışmaq



mümkün deyil. Odur ki, həm də öz maraqlarını təmin edə bilmək üçün Ermənistana Konstitusiya dəyişikliyi lazımdır.

Ortada olan tək problem Ermənistanın bunu nə zaman edə biləcəyi ilə bağlıdır. Əvvəl 2027-ci il deyən Paşinyan daha sonra bu dəyişikliklərin 2026-cı ilə Ermənistanda Parlament seçkiləri ilə eyni gündə ola biləcəyinə dair də bəyanatlarla çıxış edib. Düşünürəm ki, hər şey Ermənistan hakimiyyətinin bu istiqamətdə ictimaiyyətlə nə qədər effektiv işləyəcəyindən asılı olacaq. Əgər Ermənistan hakimiyyəti Konstitusiya dəyişikliyi ilə bağlı ictimai rəyi təmin edə biləcəksə və ölkə əhalisinin dəyişikliklərin lehinə səs verəcəyinə inanacaqsa, o zaman həqiqətən də 2026-cı ilin 7 iyulunda Parlament seçkiləri ilə paralel şəkildə Konstitusiya dəyişikliyi ilə bağlı Referendumun keçirilməsinə qərar verəcək. Yox, əgər görsələr ki, Konstitusiya dəyişikliyi seçkilərin nəticələrinə mənfi təsir göstərə bilər, o zaman seçkilərdən sonra daha altı ay gözləmək məcburiyyətində qalacağıq. Amma istənilən halda bu Konstitusiya dəyişikliyi baş verəcək. Bununla bağlı Ermənistana Beynəlxalq birlik tərəfindən, xüsusilə də ABŞ tərəfindən dəstək veriləcəyi şübhəsizdir. Daxildə olan və hələ də separatçı mövqedən çıxış edənlərin isə bu prossesə əngəl olmaq imkanları, demək olar ki, yoxdur. Əngəl olmağa çalışanlar olacaqsa, onlar da hakimiyyət tərəfindən zərərsizləşdiriləcək".

**Ədalət, Hüquq və Demokratiya Partiyası sədrinin müavini, siyasi şərhçi Niyaməddin Orduxanlı** qeyd etdi ki, Ermənistanın konstitusiyasını mütləq şəkildə dəyişdirməsi əsas şərtlərdən biri və ya birincisidir: “Azərbaycanın torpaqlarını öz ana yasalarına salan Ermənistanla hansı sülhdən danışmaq olar? Azərbaycan tərəfi tam haqlı olaraq dövlətlərarası münasibətlərin təsis olunması haqqında sazişdə konstitusiyanın dəyişdirilməsini şərt kimi irəli sürüb. Paşinyan hakimiyyəti də məhz Vaşinqtonda üçtərəfli görüşdə imzalanmış sənəddə öhdəlik götürdü ki, bunun dəyişdirilməsi üçün refendum keçiriləcək. Ermənistandakı revanşist qüvvələr tək bu məsələdə deyil, bütövlükdə Vaşinqton görüşünü qəbul etmirlər və bunu Paşinyanın ”erməni xalqının əleyhinə" imzaladığı sənəd kimi xarakterizə edirlər. Radikal qüvvələr bütün gücü ilə indiki Ermənistan hakimiyyətini devirmək üçün çalışırlar. Köçəryan-Sərkisyan cütlüyü Paşinyandan qisas almaq istəyirlər. Hazırda Paşinyanı gələn il keçiriləcək parlament seçkilərində devirmək üçün bütün vasitələrdən istifadə edəcəklər. Onu da qeyd edim ki, Paşinyanın əvvəlki kimi növbəti seçkidə uğur qazanması çox az inandırıcıdır. Paşinyan Sorosun maliyyə dəstəyi ilə hakimiyyətə gəlmişdi. Amerikada prezident seçilən Trampın Soros və onun kimi təşkilatlara münasibətinin çox pis olduğunu gördük. Əlbəttə, Paşinyan bu gün Amerikaya özünün önəmli bir lider olmasını nümayiş etdirir. Trampın razılaşdırılmış sənədə qol çəkdiyini göstərir və bundan seçki öncəsi daxili siyasi kozur kimi istifadə edəcək. Paşinyan rəqiblərini Amerikaya sülh əleyhdarı və Rusiyanın yaxın adamları kimi təqdim edəcək. Onların hakimiyyətə yenidən qayıtması, demək olar ki, nə ABŞ-nin, nə də Qərbin maraqlarına cavab verir. Radikal qüvvələrin Ermənistanda zəif olmasının əsas səbəbləri onların 30 il ərzində hakimiyyətdə olması və amansız rejim qurması olub. Bu qüvvələrin kim olduqlarını ermənilər yaxşı bilir. Və əslində Ermənistanın düşünən beyni, ziyalıları başa düşməlidilər ki, Azərbaycanla 30 illik düşmənçilik heç bir xeyir gətirməyib. 2020-ci ilin müharibəsindən ciddi nəticə çıxartmalıdılar. 6000 erməni gənci məhv edildi. Gələcək genefonduna böyük zərbə dəydi. Növbəti müharibə çox böyük insan itkilərinə səbəb ola bilər. 30 il torpaqları işğal altında saxlamaqla nə qazandılar? Vaşinqton sazişi Ermənistan və onun gələcəyi üçün böyük bir şansdır. Qafqazda sülhün əldə olunması, qazanılması ən çox Ermənistana lazımdır! Kənar qüvvələrin təsirindən çıxmalıdılar. Bundan sonra maşa rolunu oynamamalıdılar. Radikal qüvvələr Qarabağ faktorundan istifadə edib, yenidən hakimiyyəti zəbt etmək istəyirlər. Paşinyan bütün gücü ilə çalışıb, Vaşinqtonda götürdüyü öhdəliklərin hər birini yerinə yetirməlidir. Onun bundan başqa yolu yoxdur".

**❑ Cavanşir ABBASLI, “Yeni Müsavat”**

# Tanınmış elm adamından ittiham

## Şahlar Əsgərov: “Milli təhsil ”vaqon"u artıq relsdən çıxıb..."

**“Hər il 700 bal toplayan abituriyentlərin sayı artmaq əvəzinə ya azalır, ya da stabil olaraq qalır. Məsələn, bu il IV ixtisas qrupu üzrə cəmi 2 nəfər 700 bal toplamağa nail olub. Bu isə haqlı olaraq belə bir sual doğurur ki, 700 bal toplamağa nə mane olur?”**

**Elm və təhsil məsələləri daimi komissiyasının sədri olmuş Şahlar Əsgərov** azedu.az-a açıqlamasında belə deyib. O qeyd edib ki, təhsil sistemində məmurlar lazım olandan artıq dərəcədə cavanlaşdırılıb: “Mənə görə, bu gün təhsilin acınacaqlı vəziyyətə düşməsinin bir çox əsaslı səbəbləri var. İlk növbədə hesab edirəm ki, milli təhsil ”vaqon"u artıq relsdən çıxıb və irəliyə doğru hərəkət yoxdur. Təhsil sistemində qərar verənlər arasında pedaqoqlar deyil, daha çox iqtisadçılar və hüquqşünaslar üstünlük təşkil edir. Mən bu vəziyyəti belə izah edirəm: necə ki, xəstəxanada həkimlər yox, iqtisadçılar söz sahibi olarsa, orada vəziyyət ağırlaşar, eyni durum təhsil sahəsində də müşahidə olunur".

Onun fikrincə, bəzi nazirlikləri tək əllə idarə etmək mümkündür və bu bəzən məqsədəuyğundur da. “Amma mənə görə, təhsil və mədəniyyət nazirlikləri mütləq kollegial şəkildə idarə olunmalıdır. Çünki bu sahələr çox mürəkkəb sistemlərdir”. - deyə Əsgərov bildirib.

*Əsgərov nə dərəcədə haqlıdır? 700 bal toplayanlar ilbəil niyə azalır? Təhsil sistemində gənc məmurlara üstünlük verilməsi yanlış strategiyadırmı?*

**Dosent İlham Əhmədov** “Yeni Müsavat”a açıqlamasında bildirib ki, Şahlar Əsgərovun məsələ ilə bağlı irəli sürdüyü fikirlər obyektiv və haqlıdır: “Professorun qeyd olunan açıqlaması ilə tanışam. Orada toxunulan məsələlər real problemlərə əsaslanır və haqlıdır. Əslində Şahlar müəllim və digər tanınmış təhsil mütəxəssisləri artıq 20 ilə yaxındır ki, təhsil sistemimizin zəifləməsi ilə bağlı ciddi narahatlıqlarını dilə gətirirlər. Hələ 2017-ci ildə mən özüm bildirmişdim ki, tətbiq edilən yeni kurikulumda ciddi qüsurlar var və bu səhvlər birbaşa ali məktəblərə qəbul imtahanlarının nəticələrinə təsir edəcək. Nəticə də ortadadır: 2019-cu ildən sonra 700 bal toplayan abituriyentlərin sayı kəskin şəkildə azaldı, bəzi illərdə isə, ümumiyyətlə, bu nəticəni göstərən olmadı”.



Əhmədovun sözlərinə görə, bu tendensiyanın arxasında sistemli problemlər dayanır:"Bunun arxasında ciddi və dərin səbəblər var. Təəssüf ki, Elm və Təhsil Nazirliyi bu mövzuda ciddi araşdırmalar aparmır. Hələ o vaxt da demişdim ki, əgər bu yanaşma davam etsə, ali təhsil müəssisələrində qəbul yerlərinin 50 faizi boş qala bilər. Bunu önləmək üçün 2019-cu ildən sonra keçid ballarını xeyli aşağı salmağa başladılar, universitetlər isə qəbul planlarını süni şəkildə artırdılar. Bu da nə ilə nəticələndi? Təəssüf ki, baza biliyi zəif olan məzunlar universitetlərə daxil oldu və bu tələbələr ali təhsil almağa yetərli hazırlıq səviyyəsində deyildilər".

İ.Əhmədov bildirir ki, universitetlər də bu vəziyyətdən dolayı zərbə alır: “Ali məktəblər isə həmin zəif tələbələrdən asılı vəziyyətə düşüb. Çünki dövlət tərəfindən ayrılan maliyyə yetərli deyil, xüsusilə də universitetlər publik hüquqi şəxs statusu aldıqdan sonra özlərini maliyyələşdirmək öhdəliyi daşıyırlar. Bu səbəbdən də zəif biliklərlə universitetə daxil olan tələbələr süni şəkildə qiymətləndirilib məzun edilirlər. Nəticədə həmin savadsız məzunlar əmək bazarına daxil olurlar. Bir qismi isə müəllim olmaq üçün məktəblərə üz tutur”.

Bu dövrün nəticəsi kimi müəllimlərin işə qəbulu (MİQ) imtahanlarında da ciddi narahatlıqlar yaranır:"MİQ imtahanlarında da eyni gərginlik müşahidə olunur. Təəssüf ki, bəzi hallarda bu şəxslər qeyri-rəsmi yollarla məktəblərə işə düzəlirlər. Bu isə ümumilikdə təhsil sistemində balansın itməsinə səbəb olub. Son 20 ildə problemlər o qədər çox yığılıb ki, artıq bu sistemin harasından başlamaq lazım olduğunu belə müəyyənləşdirmək çətindir".

Dosentin fikrincə, problemin səbəbləri təkcə imtahan nəticələri və kurikulumlarla bağlı deyil. Təhsildə rəhbər vəzifələrə gətirilən şəxslərin kimliyi də önəm daşıyır:"Elm və Təhsil naziri tez-tez problemlərdən danışır. Onun “insanların 60 faizi oxuduğunu dərk etmir” fikrində də müəyyən həqiqət var. Bu da onu göstərir ki, sistem o qədər dolaşıq hal alıb ki, haradan islahatlara başlamaq lazım olduğu bilinmir. Biz - təhsil üzrə mütəxəssislər - müxtəlif vaxtlarda təkliflər irəli sürürük, amma nazirlik səviyyəsində bu təkliflərə ciddi yanaşılmır. Təhsil sistemində heç vaxt çalışmamış, pedaqoji təhsili olmayan şəxslərdən hansı töhfəni gözləmək olar?! Onlar ancaq müəllimi və alimi gözdən sala bilərlər. Hətta elə adamlar var ki, ‘Mən ölkədə alim tanımıram’ deyirlər. Sən tanımırsansa, bu o demək deyil ki, alim yoxdur. Sadəcə olaraq, bu sahənin içində deyilsən, ona görə tanımırsan".

İlham Əhmədov bildirib ki, məsələ təkcə 700 bal toplayan abituriyentlərin sayının azalmasında deyil - ümumən təhsil sisteminin keyfiyyəti ciddi şəkildə aşağı düşüb: “Söhbət təkcə 700 baldan getmir. Ümumilikdə təhsilin səviyyəsi çox geriləyib. Bunu son riyaziyyat olimpiadalarının nəticələri də bir daha təsdiqlədi. Təəssüf ki, vəziyyət ciddidir və həyəcan təbili çalınmalı səviyyədədir”.

Ekspertlər onu da qeyd edir ki, bu il 700 balın olmaması DİM tərəfindən obyektiv qiymətləndirmənin və yüksək standartların qorunduğunu da göstərə bilər. Lakin bu fakt eyni zamanda təhsil sisteminin struktur və məzmun baxımından ciddi islahatlara ehtiyacı olduğunu da ortaya qoyur. Qeyd edilir ki, təhsildə rəqəmlərlə deyil, bacarıq və şəxsiyyət inkişafı ilə öyünmək dövrü başlamalıdır. 700 bal olmaması yeni təhsil modelinə keçid üçün siqnaldır.

❑ **Afaq MİRAYİQ, “Yeni Müsavat”**

## Ən çox bu bölgələrin müəllimləri imtahandan kəsilib

**“Müəllim kəsilib”. Bu ifadə bir zamanlar yalnız şagirdlər üçün işlədilirdi. İndi isə vəziyyət dəyişib. Artıq müəllimlər də imtahan verir, nəticələr isə bəzən gözlənildiyindən də sərt olur.**

Bu il bəzi rayonlarda onlarla müəllim sertifikasiya imtahanından keçə bilməyib. Statistikalar göstərir ki, imtahanda minimal keçid balını toplaya bilməyənlərin sayı heç də az deyil.

Ötən il sertifikatlaşdırma imtahanından kəsilən 3 338 müəllim bu il yenidən imtahanda iştirak edib. Onların arasında imtahana girməyən, nəticəsi ləğv olunan və ən əsası müvafiq keçid balını toplaya bilməyən 2 346 nəfərin müqaviləsinə isə əmək qanunvericiliyinə uyğun olaraq xitam verilib.

AzEdu.az ötən il test imtahanı mərhələsində keçid balını toplaya bilməyən müəllimlər üçün keçirilmiş təkrar sertifikasiya imtahanında nəticəsi uğursuz olan və bu səbəbdən ən çox əmək müqaviləsinə xitam verilən müəllimlərin bölgələr üzrə siyahısını hazırlayıb.

**Siyahını təqdim edirik:**

*Ağdam 94*
*Lənkəran 89*
*Gəncə 69*
*Sabirabad 68*
*Kəlbəcər 55*
*Abşeron 54*
*Zaqatala 52*
*Şəmkir 50*
*Tovuz 50*
*Göyçay 34*
*Salyan 34*
*Şamaxı 25*
*Quba 25*

Əldə olunan rəqəmlər göstərir ki, sertifikasiya imtahanından kəsilərək əmək müqaviləsinə xitam verilən müəllimlərin sayı kifayət qədər çoxdur. Bu, müəllimlərimizin öz vəzifə borcunu yetərincə yerinə yetirmədiyini, bilik və bacarıqlarını vaxtında yeniləmədiklərini açıq şəkildə ortaya qoyur. Belə müəllimlərin təhsil sistemində qalması şagirdlərin gələcəyinə birbaşa zərbə vurur və ölkənin təhsil keyfiyyətinin aşağı düşməsinə səbəb olur.

Bu, həm də onların təhsil sahəsindəki peşəkar standartlara və tələb olunan səviyyəyə cavab vermədiyini göstərir. Müəllim peşəsi yüksək məsuliyyət və davamlı özünüinkişaf tələb edir. Uğursuzluğu qəbul etmək və təkmilləşməyə meyil göstərməmək bir müəllim üçün qəbuledilməzdir.

Sertifikasiya imtahanlarında kəsilən müəllimlərin sayı ciddi xəbərdarlıqdır. Bu peşədə yalnız ən hazırlıqlı və məsuliyyətli şəxslər qalmalıdır.

# ATU-da təhsil haqları artırıldı - etiraz

**“Tibb Universitetində ”Tibb" ixtisasının təhsil haqqı 2000 manat artırılaraq 6500 manat olub. Səmimiyyətimə inanın, indiki keyfiyyətdə olan tibb təhsilinin haqqı 1000 manatdan çox ola bilməz”.**




Musavat.com bildirir ki, bu sözləri **sabiq millət vəkili və təhsil eksperti Etibar Əliyev** bildirib.

O, təhsil haqqının bu qədər artırılmasının imkansız şəxsləri ciddi çətinliklərlə üz-üzə qoyduğunu vurğulayıb:

“Bu addım kasıb istedadlı gənclərə qənim kəsilməkdir. Onları təhsil hüququndan məhrum etmək və banklara təslim etməkdir”.

**Tanınmış pediatr Vaqif Qarayev** də təhsil haqqının artırılmasını tənqid edib:

“Tibb Universitetinin "Tibb" fakültəsində təhsil haqqı 2000 manat artırılaraq 6500 manata çatıb. Yəni həkim olmaq istəyən bir tələbə 6 il ərzində 39 000 manat ödəməlidir. Digər xərcləri də nəzərə alsaq, diplom ortalama 80-100 min manata başa gələcək. Ödənişsiz oxumaq üçün tələbələr 650+ bal toplamalıdır. Amma ödənişlə oxuyanların əksəriyyəti zəngin ailələrdən olmur və valideynlər bu xərci qarşılamaq üçün ciddi əziyyət çəkəcəklər.

İndi sual olunur: təhsil haqqı artırılandan sonra təhsilin keyfiyyətində fərq olacaq, yoxsa imkanı olanlar yenə diplomu alıb xaricə üz tutacaq?"

❑ **Xalidə GƏRAY, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 143 (8753) 15 avqust 2025

# Məşhur ticarət mərkəzində rəzalət

## Bir xanımın gündəmə gətirdiyi problem və ona reaksiyalar

**“”Xəqani Mall"da tualetə girmək istədim. Üstümdə nağd pul yoxdur, ancaq kartdır. 3-cü mərtəbəyə qalxdım. Bir də gördüm ki, arxadan bir xanım qaça-qaça gəlir, “dayanın, tualet pulnandır” deyir. Dedim ki, nə qədərdir? Dedi ki, 1 manatdır. 1 manata tualet olar? Bilmədim özü üçün, öz cibi üçün deyirdi..." - Bu sözləri Vüsalə Abdullayeva deyib. O, Bakının mərkəzində yerləşən “Xəqani” Ticarət Mərkəzində üzləşdiyi vəziyyətlə bağlı video çəkərək ictimai tualet problemini qaldırıb.**



**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** “Yeni Müsavat”a açıqlamasında məsələni yalnız infrastruktur yox, mədəniyyət problemi kimi qiymətləndirmişdi.

Onun dediklərindən sitat: “İctimai tualetlərin olması bir mədəniyyətdir. Bu, ölkənin təmizliyinin nümunəsidir. Mədəniyyət zibil qabından, sanitar qovşaqlardan başlayır. Paris kimi kapitalist şəhərdə tualetlər pulsuzdur. Azərbaycanda isə restoranlarda tualetdən istifadə etmək üçün sahibindən icazə alınmalı, ya da pul ödənilməlidir. Bu, biabırçılıqdır. Nəzərə alsaq ki, Azərbaycan turizm ölkəsidir, bu sahəyə xüsusi diqqət edilməlidir”.

E.Hüseynovun sözlərinə görə, bu məsələ turizm üçün də ciddi risk yaradır:"Ölkəyə gələn qonaqlar komfort şərait gözləyir. Əgər turist vaxtında su içməsə və ya ayaqyolu tələbatını ödəyə bilməsə, mənfi təəssüratla geri qayıdır. Turizm marşrutlarında, regionlara gedən yollarda və şəhərdə sanitar qovşaqların olmaması rüsvayçılıqdır".

**Müstəqil Həmkarlar İctimai Birliyinin həmtəsisçisi *Xəzər Teyyublu*** isə problemə daha kəskin reaksiya verib. O deyib ki, bu, sadəcə, rahatlıq yox, insan ləyaqəti məsələsidir: “İctimai tualet problemi artıq sosial rüsvayçılıq həddini keçib. Dünyanın hər yerində sanitar qovşaqlar dövlət siyasətinin bir hissəsi kimi qurulur. Bizdə isə məsuliyyət ya bələdiyyələrin, ya da özəl obyektlərin üstünə atılıb. Bu yanaşma kökündən səhvdir. Dövlət məsuliyyəti üzərinə götürməli, bələdiyyələrlə və özəl sektorla birgə ictimai tualetlər şəbəkəsini qurmalıdır”.

Xəzər Teyyublunun sözlərinə görə, problemin həlli üçün böyük büdcə tələb olunmur: “Sadə modul tipli sanitar qovşaqlar, müasir biotualetlər, park və stadionlarda pulsuz və ödənişsiz tualetlər qurmaq mümkündür. Bu iş turizm və ictimai sağlamlıq baxımından prioritet elan edilməlidir. Əks halda biz bu rüsvayçılıqdan qurtula bilməyəcəyik”. İctimai tualet böhranı Azərbaycanın sosial infrastrukturunda “görünməz, amma kəskin” böhranlardan biridir. Bu, yalnız rahatlıq deyil, həm də insanlara hörmət, gigiyena və ölkənin beynəlxalq imici məsələsidir. X.Teyyublunun fikrincə, problemin həlli üçün dövlət məsuliyyəti üzərinə götürməli, bələdiyyə və özəl sektorla birgə müasir ictimai tualet şəbəkəsi qurulmalıdır: “Hazırda məsuliyyət əsasən iaşə obyektlərinin üzərinə qoyulub. Amma reallıqda restoran və kafelərin çoxu öz sanitar qovşaqlarını ictimaiyyət üçün açmaq istəmir. Bunu edənlər də keyfiyyətli xidmət göstərə bilmir. Çünki heç bir dövlət dəstəyi yoxdur, nəzarət isə formal xarakter daşıyır. Bu problemi həll etmək üçün kosmetik tədbirlər kifayət deyil. Biz dövlətin dərhal, sistemli şəkildə müdaxiləsini tələb edirik”.

Xəzər Teyyublu deyib ki, restoran və kafe tualetlərini ictimaiyyət üçün açan sahibkarlara vergi güzəştləri verilməli, dövlət büdcəsindən aylıq simvolik ödənişlərlə onların təmizlik xərcləri qarşılanmalıdır: “Yerli icra hakimiyyətlərinə hər 2-3 km məsafədə ən azı bir pulsuz və ya simvolik ödənişli ictimai tualet qurmaq öhdəliyi qoyulmalıdır. Müstəqil ictimai birliklər və qeyri-hökumət təşkilatları sanitar qovşaqların vəziyyətinə dair mütəmadi monitorinqlər aparmalı, nəticələr ictimaiyyətə açıqlanmalıdır”.

X.Teyyublunun sözlərinə görə, ictimai tualet problemi ölkədə insan hüquqları və sosial təminat məsələlərinin bir parçasıdır: “İnsanların elementar ehtiyaclarını təmin etməyən cəmiyyət ləyaqət və sosial ədalət anlayışından uzaqdır. Bu problemin həllinə yalnız sahibkarın öhdəliyi kimi baxmaq olmaz. Dövlət bu işdə həm maliyyə, həm də inzibati dəstək verməlidir. Əks halda bu məsələ illərlə həllini tapmayacaq və Azərbaycan vətəndaşı öz ölkəsində belə özünü narahat hiss edəcək”.

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**“Yeni Müsavat”**

# Özəl məhkəmə icraçıları - işləri nə olacaq?

## Hüquqşünas deyib ki, özəl icraçı xidməti peşəkar kadr problemi ilə də üzləşəcək

**Azərbaycanda məhkəmə qərarlarının daha operativ və səmərəli icrası üçün xüsusi məhkəmə icraçıları institutu yaradılır. Bununla bağlı Prezident İlham Əliyev “Xüsusi məhkəmə icraçıları haqqında” qanunu təsdiq edib.**



Qanuna əsasən, Azərbaycan qərarların icrasının qarışıq modelinə keçməyi planlaşdırır. Bu model çərçivəsində məhkəmələrin və digər orqanların qərarlarının icrası həm dövlət, həm də xüsusi məhkəmə icraçıları tərəfindən həyata keçiriləcək. Xüsusi məhkəmə icraçıları məcburi icra orqanı statusuna malik olacaqlar. Onlar cinayət, inzibati xətalara, inzibati mübahisələrə, dövlət orqanlarının iştirakı ilə işlərə, məişət zorakılığından müdafiəyə, məcburi müalicəyə və uşağın mənafeyinə dair məsələlərə (aliment tələbləri istisna olmaqla) dair qərarları icra edə biləcəklər.

Bundan başqa, xüsusi məhkəmə icraçılarının fəaliyyətinin maliyyə dayanıqlığını təmin etmək məqsədilə ilk mərhələdə pul tələbləri ilə bağlı işlərin icrası onlara həvalə olunacaq.

Ali təhsilli Azərbaycan vətəndaşları xüsusi məhkəmə icraçısı ola biləcəklər. Bu vəzifədə işləmək istəyənlər test və müsahibə daxil olmaqla müsabiqəli seçimdən, sonra ən azı üç aylıq məcburi təlim və təcrübə keçməlidirlər. Bundan sonra onlar arayış və xidməti vəsiqə alacaq və and içərək vəzifələrinin icrasına başlayacaqlar.

Bu mütəxəssislər yalnız qanuna tabe olmaqla müstəqil işləyəcək və öz fəaliyyətlərini müstəsna olaraq göstərilən xidmətlərə görə alınan vəsait hesabına maliyyələşdirəcəklər. Eyni zamanda onlar Özünüidarəetmə orqanı olan Özəl Məhkəmə İcraçıları Palatasında birləşəcək və onun daxili qaydalarına əməl etməyə borcludurlar. Qeyd edək ki, özəl məhkəmə icraçıları institutundan istifadəyə başlamaq üçün onların attestasiyası, icbari təlimi və zəruri normativ aktların hazırlanması, həmçinin bu sahədə institusional işlərin aparılması zəruridir. Bununla bağlı 2026-cı ildə özəl məhkəmə icraçıları institutunun tətbiqi nəzərdə tutulur.

**“Bakı” Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov** deyir ki, özəl məhkəmə icraçılarının üstünlükləri ilə yanaşı, riskləri də var: “Azərbaycanda ”Xüsusi məhkəmə icraçıları" institutunun yaradılması məhkəmə qərarlarının icrası sahəsində mühüm yenilikdir. Lakin bu addımın həm müsbət, həm də ehtiyatla yanaşılmalı tərəfləri var. Üstün cəhəti budur ki, dövlət icra orqanlarında iş yükünün çoxluğu bəzən qərarların illərlə icra olunmamasına gətirib çıxarır. Özəl icraçılar isə müştəri marağına əsaslanaraq prosesi sürətləndirə bilərlər. Dövlət və özəl icraçılar arasında rəqabət yaranması xidmət keyfiyyətinin yüksəlməsinə səbəb olacaq. Qərarların icrası sahəsində “monopoliya” qırılacaq. Özəl icraçılar dövlət büdcəsindən maliyyələşmir. Onların gəlir mənbəyi gördükləri işdən əldə olunan xidmət haqqıdır. Bu, dövlətin xərclərini azaldır. Fransada, Litvada, Niderlandda, Gürcüstanda tətbiq edilən qarışıq model Azərbaycana gətirilir. Bu, ölkənin hüquqi sisteminin Avropa standartlarına yaxınlaşması deməkdir".

Natiq Ələsgərov risklər haqda bunları deyib: “Özəl icraçılar yalnız gördükləri işdən gəlir əldə etdiklərinə görə bəzi hallarda xidmət haqlarının əsassız şəkildə artırılması mümkündür. Pul tələblərinə dair işlərdə icraçının ”müştəri məmnuniyyəti" naminə qanundan kənara çıxma ehtimalı böyükdür. Bundan başqa, özəl icraçılara kim və necə nəzarət edəcək? Nəzarət mexanizmlərinin zəifliyini aradan qaldırmaq üçün mexanizm yoxdur. Əgər Özəl Məhkəmə İcraçıları Palatası üzərində real və effektiv dövlət nəzarəti qurulmazsa, korrupsiya və sui-istifadə halları qaçılmaz ola bilər".

Natiq Ələsgərov deyib ki, özəl icraçı xidməti peşəkar kadr problemi ilə də üzləşəcək: “Qısa müddətdə bu sahədə yetərincə peşəkar, təcrübəli icraçı hazırlamaq çətin olacaq. Xüsusilə mübahisəli işlərin icrasında səhvlər və sui-istifadələr mümkündür. 2026-cı ildən tətbiqi nəzərdə tutulan bu sistem, düzgün nəzarət və şəffaflıq təmin olunarsa, məhkəmə qərarlarının icrası sahəsində inqilabi dəyişiklik yarada bilər. Amma əks halda ”özəl icraçı" anlayışı ictimaiyyətin gözündə “özəl problem yaradan” statusu da qazana bilər".

Natiq Ələsgərov dünyanın bir neçə ölkəsində özəl məhkəmə icraçısı sisteminin fəaliyyətinə də toxunub: “Məsələn, Ukraynada qarışıq model tətbiq olunur. 2016-cı ildə tətbiq edilən islahatla özəl icraçılar (Private Enforcement Officers - PEO) rəsmi icraçılarla eyni səlahiyyətlərə malik oldu. 2017-ci ildə özəl icraçılar 269 iş üzrə 57.6 milyon qrivna, təxminən 235 min manata bərabər vəsaiti bərpa edib. 2018-ci ilin ilk yarısında isə bu rəqəm 2200 iş üzrə 915 milyon qrivnaya çatdı. 2017-ci ildə məhkəmə qərarlarının icra nisbəti cəmi 5-6 faiz ikən, özəl icraçılar bu nisbəti kəskin artırmağa müvəffəq oldular. Özəl icraçılar motivasiyalı olduqları və gəlirləri icra səmərəliliyindən asılı olduğu üçün daha aktiv çalışırlar”.

Natiq Ələsgərov deyib ki, Azərbaycanda müzakirə olunan model də əsasən Qazaxıstan və Litva təcrübəsinə bənzər qarışıq sistem ola bilər: bəzi icra işlərini dövlət, bəzilərini isə lisenziya almış özəl icraçılar görəcək.

2026-cı ildən Azərbaycanda tətbiq ediləcək özəl icraçı sistemi düzgün nəzarət, şəffaflıq və peşəkarlıq təmin olunarsa, icra prosesində inqilabi dəyişikliklər yarada bilər. Əks halda beynəlxalq təcrübədəki mənfi nümunələr kimi korrupsiya, sui-istifadə və ictimai narazılıq riskləri qaçılmaz ola bilər.

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 143 (8753) 15 avqust 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# Açılan tək yol deyil, milyonlar da....

## **Azər Badamov:** "Regionlara iqtisadi nəfəs gələcək və..."

**Zəngəzur dəhlizi son illərdə Azərbaycanın gündəmində olan ən vacib strateji layihələrdən biridir. Bu dəhlizin açılması təkcə coğrafi əlaqənin bərpası deyil, həm də Azərbaycanın müxtəlif bölgələri üçün dərin sosial-iqtisadi təsirlərə malik olacaq bir prosesdir. 2020-ci ildə imzalanmış üçtərəfli bəyanatdan sonra gündəmə gələn bu layihə Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas ərazisi arasında birbaşa quru yolunun bərpasını nəzərdə tutur. Bu dəhliz həm də Azərbaycanı Türkiyə və daha geniş mənada türk dünyası ilə daha sıx və dayanıqlı şəkildə birləşdirən bir körpü funksiyasını daşıyır.**





Mütəxəssislər qeyd edir ki, Zəngəzur dəhlizinin fəaliyyəti ilə Azərbaycanın qərb bölgələri nəqliyyat baxımından daha əlverişli mövqeyə keçəcək. Gəncə-Qazax, Qarabağ və Naxçıvan iqtisadi zonaları arasında yük və sərnişin daşımaları daha sürətli və səmərəli şəkildə təşkil olunacaq. Bununla yanaşı, Azərbaycanın əsas ərazisindən Naxçıvana avtomobil və dəmir yolu ilə birbaşa çıxışın təmin olunması bu regionun illərlə yaşadığı iqtisadi təcrid vəziyyətini aradan qaldıracaq. Nəticədə Naxçıvanda ticarət, istehsal və xidmət sahələrində canlanma müşahidə olunacaq.

Bölgələrdə isə yeni iqtisadi imkanların yaranması təkcə nəqliyyat sektoru ilə məhdudlaşmayacaq. Dəhlizin çəkilişi və sonrakı fəaliyyət dövründə yüzlərlə yeni iş yeri açılacaq, infrastruktur layihələri genişlənəcək və regionda sahibkarlıq mühiti daha da stimullaşdırılacaq. Əhalinin rifah səviyyəsinin yüksəlməsi ilə yanaşı, kənd təsərrüfatı və sənaye məhsullarının daşınması asanlaşacaq, daxili bazara və ixrac imkanlarına çıxış sürətlənəcək.

Digər tərəfdən, bu dəhliz xarici ticarətin genişlənməsi üçün yeni bir nəfəs olacaq. Azərbaycanla Türkiyə arasında quru yolunun yaranması iki ölkə arasında iqtisadi əlaqələri daha da möhkəmləndirəcək. Bu marşrut eyni zamanda Çin, Orta Asiya və Avropa arasında yük daşımalarında mühüm tranzit xətti rolunu oynaya bilər. Beləliklə, Zəngəzur dəhlizi Azərbaycanın beynəlxalq nəqliyyat və logistika şəbəkəsində önəmini artıraraq, ölkənin tranzit potensialını reallaşdırmasına şərait yaradacaq.

Turizm də bu prosesdən öz payını alacaq. Dəhliz vasitəsilə həm yerli, həm də xarici turistlər üçün Qarabağ, Zəngəzur və Naxçıvan bölgələrinə səfərlər asanlaşacaq. Bu isə həmin bölgələrdə mehmanxana, ictimai iaşə və digər xidmət sahələrinin inkişafına təkan verəcək. Eyni zamanda regionun zəngin mədəni və tarixi irsi daha geniş auditoriyaya tanıdılacaq.

Analitiklərə görə isə, strateji baxımdan bu dəhliz Azərbaycanın geosiyasi mövqeyini daha da gücləndirir. Türk Dövlətləri Təşkilatı daxilində inteqrasiyanı dərinləşdirir, ölkənin beynəlxalq arenada nüfuzunu artırır. Bu dəhlizin gerçəkləşməsi həm də regionda davamlı sülh və əməkdaşlıq üçün yeni perspektivlər açır. Ümumilikdə Zəngəzur dəhlizi Azərbaycanın regionlarının sosial-iqtisadi inkişafı üçün mühüm impuls olacaq. Bu layihə ölkənin bütövlüyünü və iqtisadi təhlükəsizliyini təmin etməklə yanaşı, regionların bərabər inkişafını stimullaşdıracaq, əhalinin həyat keyfiyyətinin yüksəlməsinə real zəmin yaradacaq.

Məhz bu baxımdan, Zəngəzur dəhlizinin açılması ilə bağlı aparılan müzakirələr və səsləndirilən fikirlər Azərbaycanın regional inkişaf strategiyasında bu layihənin nə qədər önəmli yer tutduğunu bir daha göstərir. **Millət vəkili Azər Badamovun** "Yeni Müsavat" qəzetinə verdiyi açıqlama da bu məqamların altını cızır və dəhlizin ölkə iqtisadiyyatına, xüsusilə də bölgələrə təsirini aydın şəkildə ortaya qoyur: "Azərbaycanın regionları üçün Zəngəzur dəhlizinin açılmasının böyük faydası olacaqdır. Bu, ilk növbədə Naxçıvana maneəsiz quru yolumuzun açılması deməkdir. Yeni Naxçıvana gediş-gəlişimiz uzun illərdən sonra heç bir maneə olmadan həyata keçiriləcək. Təbii ki, kommunikasiyaların açılması Naxçıvanın sosial-iqtisadi həyatı üçün əhəmiyyətlidir. Naxçıvanın elektrik rabitə xidmətləri, enerji və qazla təminatı da Zəngəzur dəhlizi üzərindən həyata keçiriləcəkdir. Bu həm də iqtisadi baxımdan əhəmiyyətlidir. Digər bir məsələ isə, Zəngəzur dəhlizinin beynəlxalq əhəmiyyətli layihə olması ilə bağlıdır. Yəni bu marşrut beynəlxalq nəqliyyat habına çevriləcək. Bu da bu yolun üzərində yerləşən rayonların iqtisadiyyatlarına birbaşa təsir göstərəcək. Həmin yolun üzərində restoran, istirahət mərkəzləri və ticarət şəbəkəsi inkişaf edəcəkdir. Zəngəzur dəhlizinin yaranması həm də turizmin inkişafı baxımından əhəmiyyətli olacaq. Asiya və Avropadan Azərbaycana gəlmək istəyənlər bu marşrutdan daha çox istifadə edəcəklər. Çünki bu yol daha qısa və rahat olacaqdır. Bu baxımdan Zəngəzur dəhlizinin açılması Azərbaycanın regionlarının sosial-iqtisadi inkişafı baxımdan çox əhəmiyyətli olacaqdır".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Afaq MİRAYİQ**

# Deputat məcburi köçkün statusunun ləğvinə qarşı

## **Ceyhun Məmmədov:** "Ali Baş Komandan hansı dövrdə bunu məqsədəuyğun hesab edərsə..."



**Azərbaycanın işğaldan azad olunmuş ərazilərində məcburi köçkünlərin geri dönüşü sürətlə davam edir. Prezident İlham Əliyevin bilavasitə nəzarət etdiyi "Böyük Qayıdış" prosesi çərçivəsində Füzuli, Zəngilan, Laçın, Şuşa və digər rayonlarda yaşayış üçün zəruri infrastruktur layihələri tamamlanıb və artıq minlərlə ailə doğma torpaqlarına köçürülüb. Mərhələli məskunlaşdırma strategiyası həm tikinti işlərinin koordinasiyasını, həm də əhalinin sosial rifahını nəzərə alır.**

Hazırda ərazilərdə genişmiqyaslı abadlıq və quruculuq işləri həyata keçirilir. Bərpa olunan kənd və şəhərlərdə məktəblər, xəstəxanalar, elektrik və su təchizatı sistemləri istifadəyə verilir. Dövlətin əsas prioritetlərindən biri də geri dönən vətəndaşların işlə təmin olunması və sosial inteqrasiyasıdır.

Eyni zamanda bu mərhələdə "məcburi köçkün" statusunun hələlik saxlanılması məsələsi gündəmdə qalır.

"İlk növbədə qeyd etmək lazımdır ki, bu gün vətəndaşlarımızın doğma yurd-yuvalarına qayıtması üçün dövlət tərəfindən bütün zəruri tədbirlər ardıcıllıqla və sistemli şəkildə həyata keçirilir".

Bunu modern.az-a açıqlamasında **Milli Məclisin deputatı Ceyhun Məmmədov** deyib.

O bildirib ki, qısa müddət ərzində, demək olar ki, azad olunmuş ərazilərdə məskunlaşma prosesi aparılıb: "Bilavasitə cənab Prezidentin özü bu proseslərə nəzarət edir. Vətəndaşlarımızın geri qayıtması üçün zəruri addımlar məqsədyönlü şəkildə atılır".

Millət vəkili əlavə edib ki, bu gün Qarabağın hər bir qarışında genişmiqyaslı quruculuq və abadlıq işləri görülür: "Bu isə dövlətimizin gücünü, qüdrətini və həyata keçirilən tədbirlərin ardıcıl və planlı şəkildə reallaşdırıldığını bir daha təsdiqləyir. Azərbaycanda bütün bu işlər dövlətimizin öz gücü və imkanları hesabına uğurla həyata keçirilir".

Deputat onu da diqqətə çatdırıb ki, vətəndaşların doğma yurdlarına qayıtmasına baxmayaraq, məcburi köçkün statusu hələ də qüvvədədir: "Bu status dövlət tərəfindən qorunur və vətəndaşlarımıza göstərilən dəstək çərçivəsində davam etdirilir. Məcburi köçkün statusunun tamamilə ləğv olunması məsələsinə gəldikdə isə, hesab edirəm ki, bu, yalnız dövlətin verəcəyi qərar əsasında mümkün ola bilər. Müzəffər Ali Baş Komandanımız hansı dövrdə bunu məqsədəuyğun hesab edərsə, həmin vaxt bu istiqamətdə müvafiq qərar qəbul edilə bilər".

C.Məmmədovun sözlərinə görə, bu status hələ bir müddət saxlanılmalıdır.

"Məskunlaşma prosesi davam edir. Hələ də bütün ərazilərimizə tam köç başa çatmayıb. Bununla yanaşı, vətəndaşların işlə təmin olunması kimi önəmli məsələlər də var. Bu baxımdan düşünürəm ki, bütün bu işlər birgə və mərhələli şəkildə həyata keçirilməlidir.

Məskunlaşma tam başa çatdıqdan, əksər ərazilərə köç prosesi tamamlandıqdan və insanlar işlə təmin olunduqdan sonra statusun ləğvi məsələsinə baxmaq olar. Zənnimcə, dövlətin bu sahədə verəcəyi qərar əsas və həlledici olacaq. Lakin hazırkı mərhələdə həmin statusun ləğvi tez olardı və bu, məskunlaşma prosesində müəyyən çətinliklər yarada bilər",- deyə deputat qeyd edib.

Yeni MÜSAVAT

Son səhifə

N 143 (8753) 15 avqust 2025

Avqust

## Bunları bilirsinizmi?

* Amerikalıların 60 faizi ölkələrini xəritədə tapa bilmir
* Dünyadakı kişilərin 10, qadınların isə 8 faizi solaxaydır.
* Qədim Çində valideynlərin ad günündə verilən ən yaxşı hədiyyə tabut hesab olunurdu.
* Günəş sisteminə daxil olan bütün planetləri bir tək Yupiterin içinə sığdırmaq mümkündür.
* Britaniya kraliçasının imperiya tacında düz 1783 brilyat qaş düzülüb. Onların arasında ən məşhuru 309 karatlıq lAfrika ulduzu»dur.
* Heç bir kağız vərəqini yeddi dəfədən artıq bərabər qatlamaq mümkün deyil.
* Kişilər qadınlara nisbətən üç dəfə çox intihar edirlər. Ancaq qadınlar kişilərdən üç dəfə artıq intihar cəhdi edirlər.
* Dünyada ən çox poçt şöbəsi olan ölkə Hindistandır. Orada 152 792 poçt şöbəsi fəaliyyət göstərir.
* 1950-ci ildə Çində orta insan ömrü 35 il olduğu halda, 2000-ci ildə bu rəqəm 70-ə çatıb.
* 39-cu ABŞ prezidenti Cimmi Karter dəqiqədə 2000 söz sürətlə oxumağı bacarırmış.

## KİV: ABŞ-də zənginlər "genetik superkasta" yaradırlar

**Silikon Vadisində (ABŞ) texnologiya sahəsinin liderləri gələcək nəsli "daha ağıllı" etmək məqsədilə qabaqcıl genetik testlər və rüşeym seçimi üsullarına sərmayə yatırırlar. Bəzi IT şirkət rəhbərləri gələcək uşaqlarının IQ-sunu proqnozlaşdırmaq üçün 50 min dollara qədər ödəniş edirlər.**

Oxu.az xəbər verir ki, bu barədə "The Wall Street Journal" mənbələrə istinadla məlumat yayıb.

Bildirilir ki, "Nucleus Genomics" və "Herasight" kimi startaplar 6-50 min dollar aralığında xidmət göstərərək rüşeymlərdə həm xəstəlik risklərini, həm də potensial IQ səviyyəsini təxmin edirlər. Sözügedən sənaye sürətlə böyüyür.

San-Fransiskodan bir mühəndis cütlük isə "ideal" rüşeymi seçmək üçün xəstəlik riskləri və IQ proqnozlarını birləşdirən bal sistemi yaradıb. Onların qız övladı üçün ən yüksək ümumi nəticəyə malik, amma IQ sıralamasında üçüncü yerdə olan rüşeym seçilib.

"Bu, sanki elmi-fantastik süjetdir: varlılar hakimiyyəti ələ keçirəcək genetik bir superkasta yaradırlar", - deyə Stanford Universitetinin Hüquq və Biologiya Elmləri Mərkəzinin direktoru Henk Qrili bildirir.

Qeyd edilir ki, ən radikal motivasiyanı Berkli Universitetindən olan rasionalistlər nümayiş etdirir. Onlar genetik inkişafı süni intellekt təhlükəsinə qarşı müdafiə kimi görürlər.

"Berkeley Genomics Project"in həmtəsisçisi Benson-Tilsen hesab edir ki, daha yüksək intellektə malik insanlar süni intellekti insan dəyərlərinə uyğun hərəkət etməyə vadar edə bilər, ya da başqalarına onun yaradılmamasına inandırmağın yollarını tapa bilərlər.

# Kartof qızartmalarındakı böyük təhlükə - Yeni araşdırma üzə çıxardı



**British Medical Journal-da dərc olunan genişmiqyaslı araşdırma kartof qızartmasının müntəzəm istifadəsinin 2-ci tip diabet riskini artırdığını göstərib.**

Milli.Az xəbər verir ki, mütəxəssislərin sözlərinə görə, həftədə üç dəfə qızardılmış kartof yeyənlərdə risk 20 faiz, beş dəfə yeyənlərdə isə 27 faiz yüksəlir.

Tədqiqatda qeyd olunub ki, qaynadılmış, bişmiş və ya kartof püresi istehlakı da riski 5 faiz artırır, lakin bu göstərici qızardılmış kartofa nisbətən xeyli aşağıdır. 1984-2021-ci illəri əhatə edən araşdırmada 205 min ABŞ səhiyyə işçisinin pəhriz vərdişləri izlənilib.

Araşdırma həmçinin kartofu tam taxıllarla əvəz etməyin 2-ci tip diabet riskini 8 faiz azaltdığını üzə çıxarıb. Dietoloq Dr. Kawther Hashem bildirib ki, kartof sağlam pəhrizin bir hissəsi ola bilər, lakin bişirilmə üsulu çox önəmlidir:

"Haşlanmış, bişmiş və ya püresi yağda az, lif, C vitamini və kaliumla zəngindir. Qızardıldığında isə yağ və duz miqdarı artdığı üçün diabet və çəki riski yüksəlir".

# İtaliyada hakerlər onminlərlə hotel müştərisinin şəxsi məlumatlarını oğurlayıblar

**İtaliyada cinayətkarlar ölkə hotellərinin onminlərlə qonağının şəxsi məlumatlarını oğurlayıblar.**

Bu barədə oxu.az İtaliya KİV-ə istinadən xəbər verir.

Xüsusilə də bahalı hotellərin müştəriləri zərər görüblər. İtaliya polisinin məlumatına görə, "Mydocs" adlı qruplaşma artıq neçə gündür ki, 70 minə yaxın sənədi internetdə satışa təqdim edir. Venesiya, Triyest, həmçinin Kapri adasındakı premium hotellər risk zonası altına düşüb. "Corriere del Veneto" qəzetinin məlumatına görə, məlumat sızmasından ən çox zərər çəkən Venesiyadakı dördulduzlu "Ca' dei Conti" hoteli olub, hakerlər 38 min qonağın məlumatlarına giriş əldə ediblər ki, onlar da əsasən əcnəbilər olublar.

İtaliyada hotelə yerləşmək üçün şəxsiyyət vəsiqəsini təqdim etmək tələb olunur və onun surəti adətən qeydiyyat şöbəsində hazırlanır. Bir çox hotellər sənədlərin rəqəmsallaşdırılması üçün avtomatlaşdırılmış sistemlərdən istifadə edirlər. Oğrular, ehtimal ki, pasportların və digər sənədlərin surətlərinə çıxış əldə etmək üçün bu boşluqdan istifadə ediblər.

Polisin məlumatına görə, hakerlər iyun ayından bütün ölkə üzrə hotel bronlaşdırılma sistemlərinə qanunsuz şəkildə sızıblar. Bu da onlara qonaqların qeydiyyat üçün təqdim etdikləri pasportların, şəxsiyyət vəsiqələrinin və digər sənədlərin skanerdən çıxmış nüsxələrini əldə etməyə imkan verib. İtaliyanın rəqəmsallaşdırılma üzrə dövlət agentliyi (Agid) bildirib ki, bu məlumatlar indi "darknet"də (kölgə internet) şifrələnmiş şəkildə 800-10 000 avro məbləğində qiymətlərlə satılır. Zərərçəkənlər arasında çox sayda xarici turist var, lakin hakimiyyət onların milliyyətini açıqlamır. Oğurlanmış məlumatlar, xüsusən də internet verifikasiyasından (internet yoxlanışı) yan keçmək və ya cinayət fəaliyyətini ört-basdır etmək üçün istifadə edilə bilər.

## Nadir beyin xəstəliyinin çarəsi tapıldı

**Şanxayın (Çin) Tsyaotun Universitetinin Tibb məktəbinin alimlərinin apardıqları araşdırmalara əsasən, sümük iliyinin transplantasiyası beyin hüceyrələrinin sıradan çıxması ilə müşahidə olunan nadir və ölümcül xəstəliyin proqressiv inkişafını dayandıra bilər.**

Oxu.az xəbər verir ki, tədqiqatın nəticələri "Science" jurnalında dərc olunub.

Söhbət aksonal sferoidlər və piqmentli qliya (ALSP) ilə leykoensefalopatiyadan gedir. ALSP-yə CSF1R genindəki mutasiya səbəb olur ki, bunun nəticəsində mikroqliya - beyinin immun hüceyrələri məhv olur. Bu, zədələnmiş neyronların yığılmasına, toxumaların kalsifikasiyasına, sinir liflərinin zədələnməsinə, hərəkət və koqnitiv pozğunluqların inkişafına səbəb olur. İndiyə qədər xəstəliyin öyrənilməsi üçün nə effektiv müalicə üsulu, nə də uyğun heyvan modeli mövcud deyildi.

Tədqiqatçılar ALSP-nin bütün əsas xüsusiyyətlərini inkişaf etdirən insan CSF1R mutasiyalarına malik iki siçan xətti yaradıblar. Daha sonra sümük iliyi transplantasiyasını sınaqdan keçiriblər. Əlavə prosedurlar olmadan belə, transplantasiya effektiv olub: xəstənin öz mikroqliyasının zəifləməsi səbəbindən yeni hüceyrələr onları tez bir zamanda əvəz edib.

Metod insanlar üzərində də sınaqdan keçirilib - ALSP-dən əziyyət çəkən səkkiz xəstədə sümük iliyinin transplantasiyası həyata keçirilib. Əməliyyatdan sonra iki il ərzində xəstəlik inkişaf etməyib - hüceyrələrdəki mutasiyalar aradan qaldırılıb.

Müəlliflərin fikrincə, bu, mikroqliya pozğunluğu ilə əlaqəli digər xəstəliklərdə yanaşmadan istifadə üçün imkan yaradır. Bunlara demensiyanın bəzi formaları daxildir. Alimlər qeyd edirlər ki, metodun geniş tətbiqi üçün hüceyrənin dəyişdirilməsinin effektivliyi ilə prosedurun təhlükəsizliyi arasında optimal balans tapmaq lazımdır.

## Britaniyada son 50 ilin ən kəskin quraqlığı qeydə alınıb

**Böyük Britaniyada bu ilin ilk yarısı 1976-cı ildən bəri ilin ən quraq dövrü olub.**

Oxu.Az news.sky.com ttp://news.sky.com/ portalına istinadən xəbər verir ki, ölkənin Ətraf Mühit Agentliyi bildirib.

Agentliyin məlumatına görə, ölkənin 14 regionundan 11-i quraqlıqdan əziyyət çəkib. Su ehtiyatları tükənib və bu, kənd təsərrüfatı məhsulları istehsalına mənfi təsir edib.

Həmçinin qeyd olunub ki, son günlər Britaniyada su anbarlarının doluluq səviyyəsi 67.7%-ə düşüb. Çayların 49%-də isə sululuq normadan aşağıdır.

İngiltərənin şimalındakı Yorkşirdə artıq bağların suvarılması qadağan edilib.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.